

## Sergey Marqulis: "Müttəfiqlik bəyannaməsi Rusiya və Azərbaycan üçün eyni dərəcədə faydalıdır"

6

# Moskva Bəyannaməsi mövqeyimizi daha da gücləndirdi



4

*Azərbaycanın regionda yaratdığı yeni reallıqların, son zamanlar formalaşmış yeni düzənin, eləcə də dünyanın fərqli qütbləri arasındakı münasibətlərin fonunda ölkəmizin öz müstəqil xarici siyasətinin milli maraqlarına uyğun şəkildə şaxələndirilməsi labüddür və bu baxımdan imzalanan ...*

Səs
№ 035 (6475) 24 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# Donbassda toqquşan başlar: qalib kim olacaq?

8



Dünyanın onsuz da yüksək olan siyasi hərarəti son hərbi əməliyyatlarla daha da yüksəlib, əsəblər gərilib. Rəsmi Moskvanın tanınmamış Donetsk və Luqansk "xalq respublikaları"nı tanıması, həmin "respublikalar"la hərtərəfli, o cümlədən hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq sazişinin imzalanmasından sonra dünya iki yerə bölünüb. Nikaraqua, Suriya və Belarusu çıxmaq şərtilə, dünyanın 200-ə yaxın ölkəsi Moskvaya qarşı birləşib. Hələlik ultimatum, hədələr, bəyanatlar şəklində reaksiya verilir, konkret addım isə hələlik yoxdur.

## 3 yaşlı uşağın faciəli ölümü



3 yaşlı uşaq yanaraq öldü

## Ermənilər kütləvi şəkildə Qarabağdan qaçır!



## Ermənistanın müdafiə nazirliyində nə baş verir?

10



*44 günlük İkinci Qarabağ müharibəsindən sonra Ermənistan hakimiyyətinin müxtəlif rəsmi strukturlarında ciddi qarşıdurmalar, ziddiyyətlər bu gün də səngimir. Bu xüsusda, ölkənin müdafiə nazirliyində, eləcə də baş qərargahında bir-birinin ardınca istefalara göndərilmə halları, üstəlik...*



## Avropa Məhkəməsi Ermənistanın Azərbaycanla bağlı vəsatətlərinə baxmayacaq

4

"Avropa Məhkəməsi Ermənistanın Azərbaycanın İkinci Qarabağ Müharibəsi zamanı hərəkətlərini araşdırmaqla bağlı vəsatətlərinə baxmayacaq".

# "Barselona"ya qayıtmaq üçün hər şey etdim"



16

*PSJ-nin hücumçusu Neymar 2019-cu ildə "Barselona"ya qayıtmaq istədiyini etiraf edib. Belə ki, 30 yaşlı futbolçu "Mundo Deportivo"ya açıqlamasında Kataloniya təmsilçisinə geri dönmək üçün hər şey etdiyini, lakin alınmadığını bildirib:*

# Azərbaycan və Türkiyə prezidentləri arasında telefon danışığı olub



Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Telefon söhbəti zamanı ikitərəfli gündəliyə və regional məsələlərə dair fikir mübadiləsi aparılıb. Azərbaycan ilə Türkiyə arasında qardaş və dost münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olunub.

# "Rusiya XİN Türkmənçay müqaviləsi ilə bağlı məlumatı təhrif edib"

***Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalandığı bir gündə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sosial şəbəkə hesabında 1828-ci il Türkmənçay müqaviləsi ilə bağlı təhrif olunmuş məlumatın paylaşılması təəccüb və təəssüf doğurur. AZƏRTAC xəbər verir ki, bu, Azərbaycan Xarici İşlər Nazirliyinin Rusiya XİN-in sosial şəbəkə səhifəsində Türkmənçay müqaviləsinə dair təhrif olunmuş paylaşım ilə bağlı şərhində qeyd olunub.***



Vurğulanıb ki, sözügedən müqavilədə, ümumiyyətlə, "Şərqi Ermənistan" sözünə istinad edilmir və əlbəttə, bu fakt Rusiya Xarici İşlər Nazirliyinin Tarixi sənədlər departamentinə yaxşı bəlli olmalıdır.

"Bu təhrifin aradan qaldırılmasını vacib hesab edirik və Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sosial şəbəkə səhifəsində sözügedən yanlış məlumata müvafiq düzəlişin ediləcəyini gözləyirik", - deyə Azərbaycan XİN-dən bildirilib.




# Prezident İlham Əliyev TASS agentliyində Azərbaycan-Rusiya əməkdaşlığına həsr edilmiş sərgi ilə tanış olub

***Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Moskvada TASS agentliyinin mənzil-qərargahında "Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında" adlı ekspozisiya ilə tanış oldular. Bu, TASS və AZƏRTAC-ın birgə layihəsidir.***

İyirmi fotoşəkildən ibarət olan ekspozisiyada Rusiya və Azərbaycan xalqlarının siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dostluğunun və əməkdaşlığının tarixinin ən yeni dövrü barədə söhbət açılır.

TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman ekspozisiyada təqdim edilən şəkillər barədə qonaqlara məlumat verib. TASS-ın fotoqrafları 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Boris Yeltsin tərəfindən Dostluq, Əməkdaşlıq və Təhlükəsizlik haqqında Müqavilənin, 2001-ci ildə Heydər Əliyev və Vladimir Putin tərəfindən Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanatın və Qafqazda təhlükəsizliyin təmin edilməsi və əməkdaşlığın inkişafı prinsipləri haqqında Bakı Bəyannaməsinin imzalanması anlarını əbədiləşdiriblər.

Ekspozisiyada Rusiya Prezidenti Vladimir Putinin, RF xarici işlər naziri Sergey Lavrovun, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin Azərbaycana rəsmi səfərlərindən çəkilmiş fotoşəkillər nümayiş etdirilir.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılışı və Rusiya Prezidenti Vladimir Putin tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Rusiya-Azərbaycan münasibətlərinin inkişafında və möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeninin təqdim edilməsi mərasimlərindən çəkilmiş kadrlar Mehriban Əliyevanın Rusiyaya səfərlərini əks etdirir.

2021-ci ildə Cəbrayılda "KamAZ" Açıq Səhmdar Cəmiyyətinin servis mərkəzinin və "Gəncə Avtomobil Mərkəzi" İstehsalat Birliyinin təməlinin qoyulmasını əks etdirən, AZƏRTAC-ın fotomüxbirinin çəkdiyi fotoşəkil iqtisadiyyat sahəsində əməkdaşlığı nümunəsidir. Azərbaycanın Xəzər Gəmiçiliyi üçün tikilmiş "Prezident Heydər Əliyev" neftdaşıyan tankerinin "Krasnoye Sormovo" zavodunun stapellərindən suya buraxılması mərasimindən çəkilmiş fotoşəkli TASS agentliyi təqdim edib.

Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışından, Rusiyanın və Azərbaycanın Xalq artisti Lyudmila Zıkinanın konsertindən sonra Heydər Əliyevin onunla söhbəti zamanı AZƏRTAC-ın fotomüxbirinin çəkdiyi kadrlar mədəniyyət sahəsində qarşılıqlı münasibətlərdən bəhs edir.

Ekspozisiyada Rusiya Prezidenti Vladimir Putin ilə Azərbaycan Prezidenti İlham Əliyevin görüşləri həm rəsmi fotoşəkillərlə, həm də onların Bakı sakinləri ilə qeyri-formal görüşündən çəkilmiş kadrlarla nümayiş etdirilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərgi ilə tanışlıqdan sonra TASS agentliyinin mənzil-qərargahında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüb.

# İqor Korotçenko: "Rusiya Azərbaycanın ərazi bütövlüyünün baza prinsiplərinin sarsılmazlığını bir daha təsdiq etdi"

Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya səfəri, onun Prezident Vladimir Putin ilə görüşləri və danışıqları, Moskva və Bakı arasında strateji əməkdaşlığın bundan sonrakı inkişafı barədə strateji sənədlər kompleksinin imzalanması ölkələrimiz arasında ikitərəfli münasibətlərin gedişatını və inkişafını on illər qabaqcadan müəyyən edən olduqca mühüm hadisədir.

"Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Ekspert deyib: "Beynəlxalq vəziyyətin təlatümlü olduğu bir vaxtda Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya səfəri faktı göstərir ki, Azərbaycanın timsalında bizim strateji tərəfdaşımız, öz öhdəliklərinə cavab verən ölkə kimi etibarlı müttəfiqimiz var. Sözsüz ki, biz bu səfəri, ölkələrimiz arasında qarşılıqlı münasibətlərin perspektivlərini uzun onilliklər qabaqcadan müəyyən edən sənədlərin imzalanmasını alqışlayırıq".



İ.Korotçenko vurğulayıb ki, dövlətlərimizin liderləri bir daha mövqelərini açıqlayıblar. O deyib: "Rusiya Azərbaycanın ərazi bütövlüyünün baza prinsiplərinin sarsılmazlığını, üçtərəfli Bəyanatın bütün maddələrinin, sonradan imzalanmış sənədlərin tezliklə icrasının vacibliyini bir daha təsdiq etdi. Hesab edirik ki, bu səfər dövlətlərimizin irəliyə doğru hərəkəti üçün əsas olacaq".

# Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi!

## İlham Əliyev: "Ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq"

***"Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq". Bunu Prezident İlham Əliyev fevral ayının 13-də Ağdama səfər zamanı çıxışında deyib. "Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!", - dövlət başçısı vurğulayıb.Bu bir real faktordur ki, güclü ordusu olan dövlət güclüdür.***

Və bu gün tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini də qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazdı. Bu müharibə xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Bu qalibiyyət Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən 18 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı. Və bir daha sübut etdi ki, ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq.

### AZƏRBAYCAN ORDUSU REGİONDA ƏN GÜCLÜ ORDUYA MALİK ÖLKƏ STATUSUNU DAŞIYIR

Bəli, məhz 30 il həsrətində olduğumuz "Qarabağ Azərbaycandır!"mıza 44 gün davam edən İkinci Qarabağ müharibəsindəki şanlı Zəfəri Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində ordumuzun qüdrəti barədə söylənənlərin praktik təsdiqi oldu və bir daha göstərdi ki, Azərbaycan ordusu regionda ən güclü orduya malik ölkə statusuna malikdir.

Dekabrın 10-da keçirilən Azərbaycan Ordusunun Zəfər paradında Prezident, Ali Baş Komandan bununla bağlı demişdir: "Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi".

Bu Qələbə həqiqətlərə də yeni işıq saldı. Belə ki, ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Bir çox ölkələr bu gün ordumuzun döyüş təcrübəsi ilə yaxından maraqlanmağa başlayıblar. Bununla da Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 18 ildə İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

### İŞĞALÇI DÖVLƏT AZƏRBAYCANLA HƏRB MEYDANINDA MÜBARİZƏ APARMAĞA QADİR DEYİL

Bəli, Vətən müharibəsi bir daha onu da təsdiq etdi ki, işğalçı dövlət Azərbaycanla hərb meydanında mübarizə aparmağa qadir deyil. İşğal siyasətinin qurbanı olan Ermənistan 30 il əvvəl necə idisə, elə də qalıb və inkişaf baxımından bir addım belə addımlaya bilməyib. Ermənistanın məğlubedilməz ordusunun olması barədə deyilənlər tamamilə əfsanə imiş. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi ilk gündən dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi. Çünki qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə - bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Son 18 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 18 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu gün dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı.

### MÜSTƏQİLLİK TARİXİNİN ƏN BÖYÜK BÜDCƏSİ - 2022-Cİ İL ZƏFƏR BÜDCƏSİ

44 günlük Vətən müharibəsinin qalib dövlətinin 2022-ci il üçün hazırlanan iqtisadi konstitusiyasını zəfər büdcəsi də adlandıra bilərik. Çünki bu, 30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük büdcəsidir. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır. Çünki Azərbaycan son 18 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır. Həmçinin, bu ilin dövlət büdcəsi xərclərinin 15 faizi, yəni 4 milyard 490 milyon manat həcmində vəsait bu məqsədlər üçün nəzərdə tutulub. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin bərpası məqsədi üçün 2,2 milyard manat vəsait ayrılıb. Bütün hallarda aparılan müqayisələr o qənaətə gəlməyə əsas verir ki, Vətən savaşında Azərbaycan qarşısında diz çökən Ermənistan bu gün istənilən sahələrdə Azərbaycanla ayaqlaşmaq gücündə deyil və heç bir zaman da olmayacaq.



### AZƏRBAYCANIN SİLAHLI QÜVVƏLƏRİ ÖZ DÖYÜŞ HAZIRLIĞINA GÖRƏ MDB MƏKANINDA ÖN SIRALARDA

Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Və bu gün Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Çünki güclü ordu isə güclü dövlət deməkdir.

Və bu gün böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin Qalib sərkərdəsi, Azərbaycan Ordusu ən peşəkar və döyüş ruhlu Ordu, Azərbaycan xalqı isə ən qəhrəman xalq kimi tarixə qızıl hərflərlə yazılacaq. Və növbəti mərhələdə cənab İlham Əliyevin yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək, güclü dövlətin güclü ordusu çox tezliklə, Qarabağın işğal olunmuş ərazilərimizi də geriyə qaytaracaq!

Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.



**RƏFİQƏ KAMALQIZI**

# Moskva Bəyannaməsi mövqeyimizi daha da gücləndirdi

***Azərbaycanın regionda yaratdığı yeni reallıqların, son zamanlar formalaşmış yeni düzənin, eləcə də dünyanın fərqli qütbləri arasındakı münasibətlərin fonunda ölkəmizin öz müstəqil xarici siyasətinin milli maraqlarına uyğun şəkildə şaxələndirilməsi labüddür və bu baxımdan imzalanan "Moskva Bəyannaməsi" xüsusi əhəmiyyət kəsb edir.***



Artıq hər iki ölkənin parlamenti tərəfindən ratifkasiya olunan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" kimi "Moskva Bəyannaməsi" də ölkələr arasındakı müttəfiqlik münasibətlərini daha da dərinləşdirir. Bu Bəyannamələr əlbəttə ki, Azərbaycanın hər mənada təhlükəsizliyi üçün əlavə zəmanət deməkdir.

Ölkəmiz 44 günlük Vətən müharibəsində qələbə qazandı və əldə edilən zəfərin, qələbənin siyasi-diplomatik müstəvidə daha da möhkəmlənməsinin nə qədər əhəmiyyətli, nə qədər vacib olduğu sözsüz ki, bəllidir. Xüsusilə, regionda formalaşan yeni düzən fonunda siyasi-diplomatik müstəvidə atılan addımlar diqqətə, eləcə də təqdirəlayiqdir. Məhz yeni imzalanan bəyannamə, "Moskva Bəyannaməsi" bu baxımdan xüsusilə böyük əhəmiyyət daşıyır və bundan sonrakı dövr üçün yeni mərhələnin başlandığından xəbər verir. Bu, yeni mərhələdə ölkələrimizin müttəfiqliyi anlamına gəlir və münasibətlərin daha da yaxın olmasına əsaslı zəmin yaradır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında imzalanan "Moskva Bəyannaməsi" hər iki ölkənin üzərinə görürdüyü bir öhdəlikdir. Bu öhdəlik ölkələrin qarşılıqlı olaraq müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət edilməsini, münasibətlərin güclə hədələməmək prinsipləri üzərində qurulmasını özündə ehtiva edir. Əlbəttə ki, mövcud vəziyyətdə bunun nə qədər vacib olduğu kimsədə şübhə doğura bilməz. Xüsusilə bu Bəyannamədə ölkələrin müstəqilliyinin və ərazi bütövlüyünün tanınmasının qeyd olunması çox əhəmiyyətlidir. Hər iki ölkənin müstəqil xarici siyasət yürütməsi, tərəflərin bir-birinə qarşı yönələ bilən hərəkətlərdən çəkinməyə dair öhdəlik götürmələri bəyannamənin əhəmiyyətini daha da artırmış olur.

Ən çox diqqəti çəkən məqamlardan biri də 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın, o cümlədən 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsinin vacibliyi barədə Bəyannaməsə qeyd olunmasıdır. Bilirik ki, ermənilər xislətlərinə uyğun olaraq, bütün öhdəliklərdən, rəsmi şəkildə verdikləri sözdən, vəddən imtina etməyə çalışırlar və məhz bu fonda bəlli olur ki, imzalanan sənədin əhəmiyyəti nə qədərdir və bu Bəyannamə, heç şübhəsiz ki, məlum 10 noyabr bəyannaməsinin yerinə yetirilməsi üçün yeni imkanlar, yeni rıçaqlar deməkdir. Daha dəqiq desək, Zəngəzur Dəhlizinin yenidən bərpası kimi öhdəliklərin reallaşması üçün imzalanan sənədin nə qədər böyük dəstək olduğu bəllidir.

Əlbəttə ki, nə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Rusiyaya səfəri təsadüfi səfər deyil, nə də "Moskva Bəyannaməsi" təsadüfi imzalanan sənəd sayıla bilməz. Bu səfər də, imzalanan bəyanat da düşünülmüş, planlanmış şəkildə reallaşıb və uzun zamandır ki, tərəflər buna hazırlaşırdılar desək, yanılmarıq. Əvvəla ona görə ki, imzalanacaq sənədin hazırlanması və razılaşdırılması bir günün işi deyil, əksinə, uzunmüddətli iş deməkdir, hansıki, uzun zaman tələb edir. Digər tərəfdən, heç şübhəsiz ki, hələ ötən ilin yayında Azərbaycanın qaraş Türkiyə ilə imzaladığı "Şuşa Bəyannaməsi" zamanı belə bəlli idi ki, Rusiya ilə də Bəyannamə imzalanacaq. Hətta bunu da diqqətə çatdıraq ki, ölkə rəhbəri ötən ilin sönunda xalqımıza müraciəti zamanı bu barədə, yeni Azərbaycan-Rusiya əlaqələrinin yeni səviyyəyə qalxacağı barədə anons etmişdi və bütün bunlar göstərir, eləcə də təsdiqləyir ki, görüş də, imzalanan bəyanat da təsadüfi deyil.

Sözsüz ki, imzalanan Bəyannamənin Türkiyə ilə münasibətlərə necə isə xələl gətirəcəyi mümkünsüzdür, bunu düşünənlər yanılırlar və rəsmi Moskva da bilir ki, Azərbaycanın ən əsas müttəfiqi qardaş Türkiyədir, bunu təkzib etmək mümkün də deyil. Digət tərəfdən, rəsmi Bakı bunu gizlətmir, açıq-aşkar göstərir də. Eyni zamanda, bu son Bəyannaməni imzalamaqla Azərbaycan bir daha təsdiqlədi ki, "balanslı siyasət" ənənəsinə sadiqdir. Artıq ruslar indiyə qədər olmadığı kimi, bundan sonra da ölkəmizdə antirusiya əhval-ruhiyyəsinin olmayacağına əmin oldular. Bu da öz növbəsində münasibətlərin həqiqəyən keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoyması anlamına gəlir.

Təsadüfi deyil ki, ermənilər "Moskva Bəyannaməsi" imzalandıqdan sonra yuxularını qaçırıblar. Çünki bu sənədin imzalanması həqiqətən də ermənilərə ən böyük zərbə oldu. Ermənistanın KTMT-yə üzv olmasından sui istifadə etməklə, ermənilərin Azərbaycanla Rusiyanı üz-üzə qoymaq arzusu puça çıxdı, deməkdir "Moskva Bəyannaməsi". Xatırladığımız kimi, müharibə dövründə də, müharibənin sönunda da, müharibə bitdikdən sonra da Ermənistan tərəfinin bizi provokasiya etmək niyyəti ilə ərazilərimizi atəşə tutması, bununla da Azərbaycan tərəfini Ermənistan torpaqlarına çəkmək cəhdləri göz önündə idi və bütün bunlar təsdiq edir ki, ermənilər daim Rusiyanı Azərbaycanla üz-üzə qoymaq arzusunda olublar. Amma artıq son imzalanan sənəd bu erməni arzusunun belə üstündən xətt çəkdi.

Bəli, Azərbaycan hər iki qonşu dövlətlə Bəyannamə imzalamaqla regionda öz mövqeyini daha da gücləndirdi. Çünki, əvvələ, Türkiyə və Rusiya ilə müttəfiq olmaq, eyni zamanda Avropa İttifaqı ilə ikitərəfli saziş imzalamaq Azərbaycana regionda daha effektiv xarici siyasət yeritmək imkanı qazandırdı. Digər tərəfdən də Azərbaycan regionun ən aparıcı iki ölkəsi ilə müttəfiq oldu və bu da ölkəmizin öz təhlükəsizliyin tam olaraq qarant altına alması deməkdir. Bir sözlə, bütün məqamlar bir daha təsdiq edir ki, "Moskva Bəyannaməsi" mövqeyimizi daha da gücləndirdi və artıq qüdrətli dövlətə çevrilən, öz müqəddəratını özü həll edən, torpaqlarını öz gücünə işğaldan azad edən, ərazi bütövlüyünü öz hesabına bərpa edən Azərbaycan təhlükəsizliyini də daha artıq qarant altına almış oldu, hansıki bu da bizim ölkəmizin, ölkə rəhbərimizin diplomatik qələbələrindəndir.

***İnam Hacıyev***

## "Azərbaycan və Rusiya arasındakı münasibətlər yeni müttəfiqlik səviyyəsinə yüksəlir"

"Moskvada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putinin "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamə imzalamaları bütövlükdə regionumuza ola biləcək təhdidlərin və təsirlərin aradan qaldırılmasına öz münbit, real töhfələrini verəcək". Mövzu ilə bağlı bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib.

Onun sözlərinə görə, 44 günlük Vətən mühgaribəsində zəfər qazanmış Azərbaycanın çoxşaxəli müstəqil siyasəti, region ölkələri və beynəlxalq aləmlə münasibətləri uğurlu əsaslara söykənir: "Azərbaycan öz milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdür. Eyni zamanda, Azərbaycan xarici siyasətində qlobal həmrəyliyə və beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verir. Bütün bunlar, ilk növbədə, dövlət başçımızın iradəsi hesabına əldə olunub. O cümlədən, biz bu reallığı Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli qərar və addımlarında da gördük". "Azərbaycanın BMT-dən sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına hazırkı sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər və atdığı praktiki addımlar da bunu təsdiq edir", deyən Muxtar Nağıyev vurğulayıb ki, qonşu ölkələrlə yüksək səviyyəli münasibətlərin qurulması Prezident İlham Əliyevin prioritet hesab etdiyi sahələrdəndir: "Artıq deyə bilərik ki, Moskva Bəyannaməsi ilə Azərbaycan və Rusiya arasında münasibətlər keyfiyyətcə yeni müttəfiqlik səviyyəsinə yüksəlir. Bir neçə məqama diqqət yetirək: Bəyannamədə BMT Nizamnaməsinə, Helsinki Yekun aktına, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə riayət olunmasının vacibliyi vurğulanır. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında BMT-nin aparıcı rolu xüsusilə qabardılır. Eyni zamanda, Moskva Bəyannaməsinin ana xətti həm də ondan ibarətdir ki, hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı fayda, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlik götürürlər. Bəyannamədə xüsusi olaraq vurğulanır ki, hər iki ölkə müstəqil xarici siyasət yürüdür. Bütün bunlar isə Azərbaycanın qalib ölkə olması ilə yanaşı, həm də regional və dünya əhəmiyyətli dövlət olduğunu kifayət qədər təsdiq etmiş olur".



## Avropa Məhkəməsi Ermənistanın Azərbaycanla bağlı vəsatətlərinə baxmayacaq

"Avropa Məhkəməsi Ermənistanın Azərbaycanın İkinci Qarabağ Müharibəsi zamanı hərəkətlərini araşdırmaqla bağlı vəsatətlərinə baxmayacaq".

Bunu APA-ya müsahibəsində Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov deyib.

Ç. Əsgərovun sözlərinə görə, maraqlı hal odur ki, Ermənistan beynəlxalq təşkilatlarda və informasiya məkanında Azərbaycanın İkinci Qarabağ Müharibəsi zamanı hərəkətlərini araşdırmaq zərurətini təkidlə qaldırsa da, Avropa Məhkəməsində mövqeyinin təqdim edilməsi üçün vaxtı davamlı olaraq uzatmaq barədə vəsatətləri verməklə prosesi uzatmağa çalışır: "Təəccüblü deyil ki, sonuncu dəfə Avropa Məhkəməsi Ermənistana bu barədə vəsatətlərinə bundan sonra baxılmayacağını bildirib".



# Prezident İlham Əliyevin Moskvaya səfəri Rusiya mediasının diqqət mərkəzindədir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Vladimir Putinin dəvəti ilə Rusiyaya rəsmi səfəri bu ölkənin mətbuat orqanlarının diqqət mərkəzindədir.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin səfər çərçivəsində Prezident Vladimir Putinlə apardığı danışıqlar, ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamənin imzalanması, Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanışlıq və Rusiya Hökumətinin sədri Mixail Mişustinlə görüşü Rusiya mediasında geniş işıqlandırılıb.

”Rossiya-1” telekanalının ”Vesti” proqramın Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putinin Kremldə keçirilən görüşündən hazırladığı materialda bildirilir ki, Bakı və Moskva arasında tərəfdaşlığın yeni səhifəsini açan görüş iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü ərəfəsində keçirilir. Süjetdə qeyd olunur ki, tərəflər mühüm ikitərəfli, regional və qlobal məsələləri müzakirə ediblər. Azərbaycan Prezidentinin rusiyalı həmkarını Bakıya dəvət etdiyini vurğulayan ”Rossiya-1” kanalının müxbiri planlaşdırılan səfərin əhəmiyyətinə diqqət çəkib.

Rusiyanın ”Pervıy” telekanalı Azərbaycan Prezidentinin Moskvaya səfərinin əhəmiyyətini xüsusi qeyd edib. Görüşdə Ukrayna ilə yanaşı, Qarabağ ətrafında vəziyyətin də müzakirə edildiyinin qeyd olunduğu süjetdə V.Putinin regionda vəziyyəti müsbət qiymətləndirdiyi, Azərbaycan Prezidentinin Qarabağ münaqişəsinin həllində Rusiyanın rolunu vurğuladığı əksini tapıb.

TASS agentliyi iki ölkə liderlərinin Moskva danışıqlarının başlıca yekununun müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması olduğunu yazıb. Agentliyin materiallarında bildirilir ki, Rusiya və Azərbaycan milli maraqlara cavab verən, üçüncü tərəfə qarşı yönəlməyən hərbi-texniki sahədə də əməkdaşlığı genişləndirmək niyyətindədirlər. TASS agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin sədri Mixail Mişustin ilə görüşündən də geniş xəbər hazırlayıb. Görüşdə Azərbaycan ilə Rusiya arasında mühüm strateji məsələlərə toxunulduğu diqqətə çatdırılıb.

Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın TASS agentliyinin mənzil-qərargahında ”Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında” adlı ekspozisiya ilə tanışlığı, eləcə də Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü barədə ətraflı material təqdim olunub.

Rusiyanın digər aparıcı KİV-ləri, o cümlədən ”RİA Novosti”, ”İnterfaks” agentlikləri, ”İzvestiya”, ”Kommersant” qəzetləri, ”News.ru” portalı, ”Mir” telekanalı da oxucu və izləyicilərinə Azərbaycan liderinin Moskva səfərinin əhəmiyyətindən bəhs edən materiallar yayıb.

”Vestnik Kavkaza” agentliyi yazır ki, Azərbaycan ilə Rusiya arasında imzalanan Moskva Bəyannaməsi çox böyük önəm kəsb edir. Rusiya və Azərbaycan qarşılıqlı olaraq Cənubi Qafqazda etibarlı, öhdəliklərini yerinə yetirən müttəfiqlər qazanıblar. Müttəfiqlik öz milli maraqlarını reallaşdıracaq iki suveren dövləti birləşdirib. Cənubi Qafqazda yeni dövrün - mühüm regional oyunçuların səylərini gücləndirdiyi bir dövrün başlanğıcı qoyulub.












# Moskva Bəyannaməsi: Bakı üçün yeni imkanlar



**Yaxud, Azərbaycanla Türkiyə arasındakı müttəfiqlik Rusiyanın daha dolğun qərarlar verməsinə necə şərait və imkanlar yaratdı?**

Görünən budur ki, son dövrlərə qədər əldə edilmiş razılaşmaların məntiqi nəticəsi olaraq yeni tariximizə yazılan Moskva Bəyannaməsi rəsmi Bakının regional və beynəlxalq əhəmiyyətli rolunu daha da artırır və bu mühüm faktor Azərbaycanın həyata keçirdiyi müstəqil, qətiyyətli siyasətinin bariz göstəricisi kimi də qiymətləndirilməlidir. Artıq dünyada cərəyan edən qlobal hərbi-siyasi hadisələr, təlatümlər də belə bir nəticə hasil etməyə zəmin yaradır ki, regionumuza qarşı olan təhlükələrə və təhdidlərə qarşı mübarizədə birgə müqavimət meyarları artırılmalıdır. Bunun üçün isə müttəfiqlik bazasının yaradılması, bu bazanın möhkəmləndirilməsi, əsaslı dayaqlarla təmin olunması, həmçinin onun fəaliyyət trayektoriyasının genişləndirilməsi vacibliyi zərurət olaraq meydana çıxırdı...

**Şuşa Bəyannaməsindən Moskva Bəyannaməsinə doğru - regional təhlükəsizliyin qorunması, təhdidlərin qarşısının alınması üçün üç mühüm amil**

Bu xüsusda, 44 günlük müharibədən sonra rəsmi Bakının atdığı ardıcıl addımları, ilk növbədə, qardaş Türkiyə ilə Şuşa Bəyannaməsinin əsasını qoydu. Məhz Şuşa Bəyannaməsinin hər iki ölkə başçıları - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən ratifikasiya edilməsi Cənubi Qafqaz regionuna olan bir sıra təhdidlərin aradan qalmasına zəminlər yaratdı.

O cümlədən, regionun əsas oyunçuları sırasında yer alan, habelə qonşumuz olan Rusiyanın regional təhlükəsizlik məsələsindəki rolunun artırılması üçün atılan addımlar Moskva Bəyannaməsinə doğru irəliləməyə başladı. Və nəhayət, fevralın 22-də Bakı ilə Moskva arasında adıçəkilən sənədə dövlət başçıları tərəfindən imzalar atıldı. Hadisələrin ardıcıl axarından isə bu cür nəticələri çıxara bilərik:

**1.** İlk olaraq Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərinin rəsmiləşməsi regionun konfiqurasiyasını dəyişdi;

**2.** Növbəti addım kimi Azərbaycanla Rusiya arasında müttəfiqlik münasibətlərinin qurulması regional konfiqurasiyaya ayrıca rəng qatdı;

**3.** Artıq Cənubi Qafqaz regionunun təhlükəsizliyini mühafizə edən, yarana biləcək istənilən təhdidlərə qarşı cavab verəcək üç əsas dövləti var: Azərbaycan, Türkiyə və Rusiya;

**Bakının əhəmiyyəti və ya mümkünsüzlüyün mümkünlüyə çevrilməsi**

Fakt budur ki, son zamanlar Türkiyə-Rusiya münasibətlərinin yeni müstəviyə çıxması və Azərbaycanın əhəmiyyətli vasitəçiliyi qarşıda dayanan sədləri aşmağa kifayət qədər imkanlar yaratdı. Bəlkə də belə bir mühitin yaranması daha əvvəllər mümkünsüz görünürdü, amma güclü siyasi iradə və qətiyyət amili mümkünsüzlüyün mümkünlüyə çevrilə biləcəyini isbatladı. Misal üçün, NATO ölkəsi olan Türkiyə ilə KTMT-nin söz sahibi Rusiya arasında bir sıra fərqli fikirlərin olmasına rəğmən, bu ölkələrin ortaq məxrəclərinin mövcudluğu da özünü təsdiq etdi. Prosesdə Azərbaycanın yer alması isə sözügedən mövcudluğu sübuta yetirdi.

Türkiyə-Rusiya münasibətləri Cənubi Qafqaz regionunda dəyişən konfiqurasiya faktorlarını müttəfiqliyə qədər inkişaf etdirə bilər

Bu kontekstdən çıxış etsək həm də belə bir proqnozları irəli sürmək olar ki, qarşıdakı vaxtlarda Türkiyə-Rusiya münasibətləri Cənubi Qafqaz regionunda dəyişən konfiqurasiya faktorlarını müttəfiqliyə qədər inkişaf etdirə bilər. Beləliklə, mümkünsüzün mümkünlüyə çevrilməsi reallığı da məhz həmin təməllərə söykənir. Burada isə Azərbaycanın vasitəçilik rolu ilə çıxış edəcəyinə kimsə şübhə edə bilməz.

Təbii ki, ən əsas nüans burada Azərbaycan Prezidentinin diplomatiya sahəsində əldə etdiyi uğurlarıdır və bu uğurlar, ilk növbədə, 44 günlük Vətən müharibəsində qazanılan qələbə ilə təsdiqləndi, eləcə də həmin uğurlarla kifayətlənməmək mövcud uğurların əldə edilməsinə yol açdı.

Qarabağda tamamilə fərqli situasiya mövcuddur və bu situasiyadan yalnız güclü əməkdaşlıq, müttəfiqlik, dostluq əlaqələri sayəsində yararlanmaq mümkündür

Regionu isə inkişaf, tərəqqi gözləyir və bu yolda Azərbaycanın geriyə addım atmasına heç bir qüvvə təsir edə bilməz. Habelə, Qarabağda mövcud olan bir sıra çatışmaz cəhətlərin aradan qaldırılması, Zəngəzur dəhlizinin açılması və s. kimi regional layihələrin icrası da sürətləndiriləcək və bu məsələdə Azərbaycanın müttəfiqinə çevrilən Rusiyanın rolunu danmaq uğursuz və ədalətsiz seçim olardı.

Çünki Rusiyada da gördü və anladı ki, digər məsələlərdə hər hansı təsir siyasətini göstərə bilər, amma Cənubi Qafqazda, daha dəqiq desək, Qarabağda tamamilə fərqli situasiya mövcuddur və bu situasiyadan yalnız güclü əməkdaşlıq, müttəfiqlik, dostluq əlaqələri sayəsində yararlanmaq mümkündür. Əlbəttə ki, Azərbaycanla Türkiyə arasındakı müttəfiqlik də Rusiyanın daha dolğun qərarlar verməsinə şərait və imkan yaratdı, həmçinin Moskva Bəyannaməsinin imzalanmasına doğru təkan verdi.

***Rövşən RƏSULOV***

***P.S.** Moskva Bəyannaməsinin bəndlərini analiz etsək, deyə bilərik ki, artıq bizləri qarşıda yeni sürətli mərhələlər gözləyir: yerdə qalan ərazilərimizin tam bərpası, Xankəndidəki separatçı tör-töküntülərinin torpaqlarımızdan rədd edilməsi, inkişaf və güclü iqtisadi dayaqlar, xarici təsirlərdən, təhdidlərdən maksimum müdafiə olunmaq gerçəkliyi.*

## Sergey Marqulis: "Müttəfiqlik bəyannaməsi Rusiya və Azərbaycan üçün eyni dərəcədə faydalıdır"



Fevralın 22-də Moskvada Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putin arasında danışıqlar olub. İki ölkə liderlərinin görüşünün və Bakı ilə Moskva arasında müttəfiqlik əməkdaşlığı haqqında Bəyannamənin imzalanmasının əhəmiyyəti, o cümlədən hazırda Azərbaycan və Rusiyanın maraqları zonasında olan məsələlər barədə rusiyalı ekspert, Beynəlxalq Siyasət və Xarici Əlaqələr Departamentinin əməkdaşı, Rusiya Federasiyası Prezidenti yanında RANEPA Sosial Elmlər İnstitutunun Regionşünaslıq üzrə baş müəllimi Sergey Marqulis Caliber.Az-a fikirlərini bölüşüb. Ekspertin şərhini oxucularımıza təqdim edirik.

Rusiyalı ekspertin sözlərinə görə, prezidentlər Vladimir Putin və İlham Əliyev arasında aparılan danışıqlarda Qarabağ məsələsi, konkret olaraq 2021-ci il noyabrın 26-da demarkasiya və delimitasiya ilə bağlı tərəflər arasında imzalanmış sazişlərdən irəli gələn sazişlərin icrasına xüsusi yer ayrılıb. Ermənistan-Azərbaycan sərhədində, eləcə də nəqliyyat dəhlizlərinin açılması məsələlərinin həlli məsələsinə.

"Moskva, eləcə də Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, regionun bütün ölkələrinin iqtisadi inkişafı üçün nəqliyyat kommunikasiyalarının tezliklə açılmasını istəyir. Mən Müttəfiqlik Bəyannaməsinin imzalanmasına böyük əhəmiyyət verərdim, çünki hesab edirəm ki, bu, hazırda həm siyasi, həm də siyasi baxımdan kifayət qədər yüksək səviyyədə olan Rusiya-Azərbaycan münasibətlərinin ticarət-iqtisadi sahədə daha da dərinləşməsi üçün mühüm addım olmalıdır. Müttəfiqlik Bəyannaməsinin imzalanması faktının özü çox vacibdir, çünki o, Moskva ilə Bakı arasında son illərdə inkişaf edən və bütövlükdə kifayət qədər müsbət inkişaf edən əlaqələrin yüksək səviyyəsini təcəssüm etdirir. Bu Bəyannamə həm Rusiya, həm də Azərbaycan üçün və təxminən eyni dərəcədə vacibdir. Moskva üçün bu, Rusiya ilə Qərb arasında indiki kifayət qədər mürəkkəb münasibətlərdə etibarlı tərəfdaşın və müttəfiqin olmasının müsbət amil olduğunun birmənalı nümayişidir. Azərbaycan üçün bu fakt həm də Rusiyanın postsovet məkanında xüsusi rolunu nəzərə alaraq son dərəcə zəruridir.

İnanıram ki, gələcəkdə tərəflər ticarət-iqtisadi əməkdaşlıq məsələlərinə böyük diqqət yetirəcəklər, çünki Azərbaycan üçün Rusiya qeyri-xammal sektorunun məhsullarının tədarükü üçün əsas bazardır.

Yəni, Rusiya, bir qayda olaraq, Azərbaycan üçün ixrac tərəfdaş ölkələri siyahısında 6-cı və ya 7-ci yerdə olmasına baxmayaraq, eyni zamanda, qeyri-xammal sektorundan malların tədarükünə görə liderdir. Xüsusilə, Azərbaycan Rusiya kənd təsərrüfatı məhsullarının idxalında liderdir və toxuculuq məhsullarının idxalında açıq-aşkar ilk üçlük sırasındadır. Bundan başqa, bir çox növ aqrar-sənaye məhsulları Azərbaycan tərəfindən daha çox Rusiya Federasiyasına və Aİ ölkələrinə göndərilir. Ona görə də Azərbaycan iqtisadiyyatının xammal sektorundan ümumi asılılığının azaldılması nöqteyi-nəzərindən ən perspektivlisi məhz Rusiya, eləcə də Türkiyə ilə münasibətlərdir. Müvafiq olaraq, Rusiya ilə Azərbaycan arasında dostluq və mehriban qonşuluq münasibətlərinin əsasını məhz ticarət-iqtisadi əlaqələr təşkil etməlidir", - S.Marqulis bildirib.

***Tərcümə - Elçin Bayramlı***



# “Prezident Qarabağı dünyanın ən gözəl guşələrindən birinə çevirməyi hədəfə alıb”




“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ağcabədi, Ağdam rayonlarına səfəri onu göstərdi ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidənqurulması vacib məsələlərdən biridir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib. Onun sözlərinə görə, bununla yanaşı regionlarımızın inkişafı məsələsi də dövlətimizin qarşısında duran ən mühüm məsələlərdən biridir: ”Bu məntiqlə də cənab Prezidentimizin Ağcabədi və Ağdam rayonlarına səfəri çərçivəsində çox mühüm strateji əhəmiyyətli obyektlərin açılışı həyata keçirilmişdir. Elektrik enerji istehsalı müəssələrinin açılışı çox böyük məna və əhəmiyyət kəsb edir. 2021-ci ilin son nəticələrinə görə qeyri-neft sənayesinin inkişafı 20 faizi ötüb kecib. Bu birbaşa onu təsdiqləyir ki, ölkənin qeyri-neft sektorunda çox böyük inkişaf var”.

Deputat sözlərinə belə davam edib: ”Heç şübhəsiz ki, neft sənayesinin inkişafından danışarkən turizimin də inkişafını qeyd etmək lazımdır. Ağdam şəhərində ”Park Fores Hotel”, Ağdam mehmanxanasının təməlinin qoyulması turizmin inkişafının göstəricisidir. Cənab Prezident Qarabağı dünyanın ən gözəl guşələrindən birinə çevirməyi hədəfə almışdır.

Cənab Prezidentin Ağdama səfəri nəticəsində Ağdamda yaşayış kompleksinin əsası qoyuldu. Cənab Prezident Ağdamda Cümə Məscidinin bərpası ilə də yaxından tanış oldu. Ağdam Cümə Məscidinin restavrasiya işləri ilə Heydər Əliyev Fondu məşğul olur. İşğaldan azad olunmuş ərazilərimizdə səhiyyə infrastrukturunun yaradılması müstəsna əhəmiyyət kəsb edir. Ən mühüm məsələ pandemiya dövründə sağlamlıq məsələsidir. Ağdamda mərkəzi xəstəxananın əsasının qoyulması məhz bu məsələyə xidmət edir. Ağcabədidə Daxili İşlər Nazirliyinin daxili qoşunlarının yeni inşa olunan hərbi şəhərciyi də istifadəyə verildi. Bununla da bütün lazım olan infrastruktur formalaşıb”.

*Ayşən Vəli*

# Avropa İttifaqı Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etdi

Avropa İttifaqı (Aİ) ölkələri yekdilliklə Rusiyaya qarşı sanksiyalar paketini qəbul edib. Donbasın müstəqilliyinə səs verən Dövlət Dumasının 351 deputatı Aİ-nin qara siyahısına salınıb. Aİ, həmçinin Rusiyanın Donbasdakı əməliyyatlarını maliyyələşdirən bank və təşkilatlar da daxil olmaqla 27 fiziki və hüquqi şəxsi qara siyahıya salıb.

Həmçinin Rusiyanın dövlət borcuna qarşı sanksiyalar tətbiq edilib, onun Aİ-nin kapital və maliyyə bazarlarına çıxışı məhdudlaşdırılıb.

Xatırladaq ki, 2022-ci ilin fevralın 21-də Rusiya Prezidenti Vladimir Putin xalqa müraciətində Ukraynanın Donbas ərazisində yaradılan iki qondarma respublikanı tanıdığını bildirib. O, bununla bağlı fərman imzalayıb.

Qərb ölkələri, o cümlədən Türkiyə və Gürcüstan Rusiyanın bu addımını pisləyib və bunun beynəlxalq hüquqa zidd olduğunu açıqlayıblar. Azərbaycan daxil olmaqla, BMT üzvlərinin mütləq əksəriyyəti Krım yarımadası və Donbası Ukraynanın ərazisi olaraq tanıyır./report



*“Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında münasibətlər quran Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu artmaqdadır. Tarixi Zəfərimizin yaratdığı reallıqlar fonunda yeni əməkdaşlıq formatlarının müəllifi kimi çıxış edən Azərbaycanın ötən ilin iyununda qardaş Türkiyə ilə müttəfiqlik sənədini, bu il fevralın 22-də isə dövlət başçısı İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri zamanı "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması da postmünaqişə dövrünün reallıqlarının təqdimatında əhəmiyyətli rol oynayır.*



# “Azərbaycan-Rusiya münasibətləri keyfiyyətcə yeni səviyyəyə yüksəlir"

Hər iki sənəd ölkələr arasında müttəfiqlik münasibətlərinin inkişafında, əlaqələrdə yeni mərhələnin başlanmasında əhəmiyyətli rol oynayacaq.” Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Qoşulmama Hərəkatının üzvü və fəaliyyətdə olan sədri kimi Azərbaycan tam neytral, öz milli maraqlarına uyğun çoxşahəli müstəqil xarici siyasət yürüdür, respublikamızın digər ölkələrlə münasibətləri heç vaxt üçüncü tərəfə qarşı yönəlməyib: ”Bəyannamənin imzalanması regionda gedən son proseslərlə əlaqələndirilə bilməz. Azərbaycan dövlətinin xarici siyasətində qonşularla əlaqələrin yeni prioritetlər üzrə inkişafı əsas yer tutur. Azərbaycan-Rusiya münasibətləri tarixi köklərə malikdir. Qarşılıqlı səfərlər və bu səfərlər çərçivəsində imzalanan sənədlər münasibətlərimizin inkişafında yeni mərhələnin başlanmasında stimulverici amildir. İki qonşu ölkənin əlaqələrinin yüksələn xətlə inkişafında, həmçinin dövlət başçılarının şəxsi münasibətləri, qarşılıqlı yüksək etimad mühiti əhəmiyyətli rol oynayır. Prezident İlham Əliyev daim bu reallığı önə çəkir ki, hər bir ölkə üçün onun qonşuları ilə yaxşı münasibətlərinin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, çox konstruktiv, düşünülmüş siyasət apararaq Ermənistan istisna olmaqla bütün qonşuları ilə gözəl münasibətlər qura bilib və dövlətimiz bu əməkdaşlıqdan maksimum faydalanır. Məlumdur ki, müasir dövrdə həm regional təhlükəsizliyin təmin olunması, həm də nəqliyyat, energetika, ticarət məsələlərinin uğurla həlli xeyli dərəcədə qonşularla münasibətlərin inkişaf səviyyəsindən asılıdır. Bu baxımdan əminliklə deyə bilərik ki, qədim dostluq və mehriban qonşuluq ənənələrinə söykənən Rusiya-Azərbaycan münasibətləri daim yüksələn xətt üzrə inkişaf edir.”

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Rusiya-Azərbaycan münasibətlərinin bundan sonrakı uğurlu inkişafı regional sabitliyin və təhlükəsizliyin qorunub saxlanılmasına, Cənubi Qafqazda sülhün və qarşılıqlı anlaşmanın dəstəklənməsinə, xalqlarımızın əsaslı maraqlarının reallaşmasına öz müsbət təsirini göstərəcək: ”Azərbaycan dövləti tarixi Zəfərimizin reallıqları fonunda Ermənistana sülh müqaviləsinin imzalanması ilə bağlı təkliflərini çatdırıb. Məqsəd bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması və yeni əməkdaşlıq formatlarının yaradılması prosesinin sürətləndirilməsidir. Diqqət yetirsək görərik ki, son zamanlar dünya gücləri Azərbaycanla əlaqələrin inkişafında maraqlı olmaqla yanaşı, bu istəklərini regionda dayanıqlı sülhə töhfələr verməyə səy göstərməklə ifadə edirlər. Məsələyə bu kontekstdən yanaşdıqda Moskva, Soçi, həmçinin Brüssel görüşləri günümüzün reallıqlarının aydın mənzərəsini yaradır. Dayanıqlı sülhə töhfə vermək prosesində bu görüşlərlə bərabər, imzalanan sənədlər də öz əhəmiyyətli rolunu oynamaqdadır. Xüsusi vurğulamaq lazımdır ki, Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur. Hər iki ölkə müttəfiqlik fəaliyyətini biri-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulması, müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinmək, öz ərazisində hər hansı bir təşkilat və şəxslərin digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almağa dair öhdəlik götürürlər.”

Vüqar Rəhimzadə onu da əlavə edib ki, Bəyannamədə Qafqaz regionu və Xəzərdə sabitliyin və təhlükəsizliyin təmin edilməsində qarşılıqlı fəaliyyətin zəruriliyi qeyd olunur və bu xüsusda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada nəzərdə tutulmuş bütün fəaliyyət prinsiplərinin vacibliyi təsdiq edilir: ”Azərbaycan dövləti daim Xəzərin dostluq, əməkdaşlıq dənizi olmasına çağırışlar edib. Təbii ki, bu da dövlətimizin xarici siyasətinin dəyişməz olan prinsiplərinə əsaslanır.”

”Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi kimi, Rusiya ilə imzalanmış Moskva Bəyannaməsi də Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə zəmanət verir” söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, 44 günlük Vətən müharibəsində Qələbəmizdən sonra Cənubi Qafqazda formalaşmış yeni siyasi mühitin əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Bu mənada, Azərbaycanın hər iki ölkə ilə müttəfiqlik bəyannamələrini imzalaması bu yeni siyasi mühiti rəsmən təsbit edir. Türkiyə ilə Şuşa Bəyannaməsinin, Rusiya ilə Moskva Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan bu ilin birinci yarısında Avropa İttifaqı (Aİ) ilə də ikitərəfli saziş üzrə danışıqları bitirmək və sazişi imzalamaq niyyətindədir. Bu məqsədlə mart ayında Bakıda Azərbaycan və Avropa İttifaqı arasında növbəti təhlükəsizlik dialoqu keçiriləcək. Ötən ilin dekabrında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin Brüsseldə görüşü qurumun ölkəmizlə münasibətlərinin hazırkı səviyyəsinə işıq saldı. Bu görüşlərin ardınca bu il fevralın 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş keçirildi. Bu görüş Brüssel sülh gündəliyinin davamı kimi dəyərləndirildi.”

Vüqar Rəhimzadə aparılan təhlillərə söykənərək bu fikri xüsusi qeyd edib ki, dünyanın bütün güc mərkəzləri və qonşu ölkələrlə yüksək səviyyəli münasibətlərin qurulması Prezident İlham Əliyevin prioritet hesab etdiyi sahələrdəndir: ”Azərbaycan iki qüdrətli qonşusu - Türkiyə və Rusiya ilə müttəfiq olur, Aİ ilə saziş imzalamağa hazırlaşır. Regionda və dünyada gedən proseslər fonunda Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, dünyanın bütün güc mərkəzlərindən öz müstəqil siyasətinə, təhlükəsizliyinə zəmanət qazanıb. Bu isə Azərbaycanın diplomatiyasının uğurudur. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri, həmçinin artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri kimi Rusiyanın Azərbaycan ilə münasibətlərinin yüksələn xətlə inkişafı, ölkələrimiz arasında müttəfiqlik Bəyannaməsinin imzalanması postmünaqişə dövrünün reallıqlarının qəbul edilməsində də əhəmiyyətli rol oynayacaq. Bu baxımdan imzalanan Bəyannamə Ermənistana böyük zərbədir. Bugünədək dünyanın ikili standartlara əsaslanan siyasətindən bəhrələnən işğalçı Ermənistan artıq dünya güclərinin Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləmələrinin şahididir. Ermənistanın sülh müqaviləsini imzalayıb yeni reallıqların diktə etdiyi gerçəklikləri qəbul etməkdən başqa yolu yoxdur.”

***Dünyanın onsuz da yüksək olan siyasi hərarəti son hərbi əməliyyatlarla daha da yüksəlib, əsəblər gərilib. Rəsmi Moskvanın tanınmamış Donetsk və Luqansk "xalq respublikaları"nı tanıması, həmin "respublikalar"la hərtərəfli, o cümlədən hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq sazişinin imzalanmasından sonra dünya iki yerə bölünüb. Nikaraqua, Suriya və Belarusu çıxmaq şərtilə, dünyanın 200-ə yaxın ölkəsi Moskvaya qarşı birləşib. Hələlik ultimatum, hədələr, bəyanatlar şəklində reaksiya verilir, konkret addım isə hələlik yoxdur. Ukrayna Rusiya ilə faktiki olaraq baş-başa qalıb. Rusiyaya qrşı tətbiq olunan sanksiyalar da Qərbin maraqları çərçivəsindədir. Əslində Qərbin marağı heç də Ukraynanın suverenliyinin və ərazi bütövlüyünün qorunması deyil. ABŞ və Avropanın baxışları Ukraynanın təbii sərvətlərini fokuslanıb. Ukrayna Qərbin tam olaraq nəzarətinə keçsə, bu, Rusiyanın təbii sərbətlərinə daha yaxın olmaq anlamına gəlir. Bir sözlə, ABŞ və onun dostlarını iştahlandıran Rusiyanın yüz illərə yetəcək sərvətləridir. Qərb Ukraynanın - "Seyid Əhmədin" əli ilə ilan tutmaq istəyir. Amma diktə edən tərəf hələlik Rusiyadır...***

# Donbassda toqquşan başlar: qalib kim olacaq?

## ANALİZ



Beynəlxalq siyasətin alt qatına varsaq, əslində, Ukraynada baş verənlər BMT Təhlükəzislik Şurasının daimi üzvləri arasındakı qarşıdurmalardan qaynaqlanır. SSRİni dağıtmağa müyəssər olan Qərb xeyli müddətdir ki, Rusiyanın təsir dairəsində olan ölkələri onun əlindən almağa çalışır. Bir az da dəqiqləşdirsək, Rusiya Federasiyasının "qardaş respublikalar"dan düzəldilmiş zirehli paltarını onun əynindən soyundurmaq istəyir. Əvvəlcə Rusiya ilə müttəfiq olan Şərqi Avropa ölkələri Qərbin caynağına keçdi. Rusiyanın zəifliyindən istifadə edən "Qoca Avropa" Polşa, Çexiya, Slovakiya, Macarıstan, Rumıniya, Bolqarıstan və parçalanmış Yuqoslaviyanı Rusiyanın təsir dairəsindən qopardılar. "Qardaş respublikalar"ın ələ keçirilməsi isə Rusiyanı son zirehindən məhrum etməkdir. Bunu Rusiyanın siyasi elitasında anlamamış deyillər, zireh artıq deşilib. Uzun illər Rusiyanın sərhədlərindən uzaq tutlan Qərb indi paytaxt Moskvanın bir addımlıqdadırlar. SSRİnin parçalanmasından sonra Rusiyanın üzünə ağ olan ilk "qaranquşlar" Baltikyanı ölkələr oldu. Latviya, Litva və Estoniya SSRİnin tərkibinə gec qatıldıqları kimi tez də çıxdılar. Bu SSR İttifaqını tərk edib qısa müddət ərzində NATO-nun üzvü də oldular. Rusiya bütün bunlardan xəbərdardır. Ona görə də BMT Təhlükəsizlik Şurasında təmsil olunan digər üzvlərlə bu barədə dartışmaları da az olmayıb.





Əvvəllər BMT-də müzakirə olunan məsələlərdə konsensusa gəlmək mümkün idi, qurumun nüfuzu da az deyildi. Amma SSRİnin dağıdılmasına start verilən gündən, yəni 1990-cı ildən bəri BMT-də anlaşma mühitindən əsər-əlamət qalmayıb. Dünyanın harasında baş verməsindən asılı olmayaraq hadisələrə BMT-nin münasibəti qərar və qətnamə, həmçinin bəyanatdan o tərəfə keçə bilməyib. Qərarlar daim havadan asılı qalıb, heç bir qətnamə yerinə yetirilmir. İkili standartlardan isə danışmasaq yaxşıdır. Bu yanaşmalar durduqca BMT-nin nüfuzu da bir o qədər aşağı düşür. Əslində beynəlxalq təşkilatın dişsizliyini "təmin edən", onu Təhlükəsizlik Şurasının 5 daimi üzvünün yanında rəzil günə qoyan da ABŞ, Fransa, Çin, Rusiya və Böyük Britaniyadır.

Yaxın tariximizə diqqət edək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT-nin 4 qətnaməsi qəbul olunmuşdu. Amma 28 il qətnamələrin icra mexanizmi işə düşmədi. Amma Fransanın təkidi ilə Liviya haqqında çıxarılan qətnamənin mürəkkəbi qurumamış rəsmi Parisin bütün hərbi arsenalı bu müsəlman ölkəsinə qarşı hərəkətə keçdi. Liviya neftinin satışı üzərində hökmranlığını bərpa edəndən sonra Fransa sakitləşdi. Törətdiyi dağıntılar, fəlakətlər isə Fransanı zərrə qədər də narahat etmədi, əsas qazancdır, maraqdır.

Yuxarıda dediyimiz kimi, Rusiya-Ukrayna sərhədində baş verənlər də bu qəbildəndir. Əslində bu münaqişənin adını Rusiya-Ukrayna yox, Rusiya-Qərb qoysaq daha məntiqli olar. Donetskdə, Luqanskidə Rusiya silahlı birləşmələri ilə qarşı-qarşıya dayanan gücləri Qərb-NATO adlandırmaq daha düzgündür. Birinci dünya müharibəsindən sonra təhlükəsizlik baxımından Rusiya paytaxtını Sankt-Peterburqdan ölkənin içərilərinə - Moskvaya köçürdülər. Bu gün oxşar hadisə təkrarlanmaq üzrədir. Rusiya paytaxtı yenidən köçürülə bilər, amma Moskva çox da "həvəsli" görünmür. Xarici hərbi təhlükə artdıqca, Rusiyanın müqaviməti də artır.

Rusiya prezidenti Vladimir Putinin sədrliyi ilə Federasiya Təhlükəsizlik Şurasının iclası keçirildi və yekun olaraq Ukrayna ərazisində 2014-cü ildə qanunsuz olaraq elan olunmuş və heç bir ölkə tərəfindən tanınmayan DXR və LXR adlı "respublikalar"ın tanınması ilə bağlı qərar qəbul edildi. Dövlət başçısı Vladimir Putin hər iki "respublika" ilə hərtərəfli ələqələrin yaradılması, o cümlədən hərbi yardımların edilməsi barədə əmr imzaladı və bölgəyə ordu göndərmək barədə əmr verdi. Ukrayna Prezidenti Zelenski də Moskvaya "heç kimdən qorxmuruq" isмarıcını göndərdi. BMT Təhlükəsizlik Şurası təcili toplanmaq barədə üzv ölkələrə dəvət göndərdi.

Görək, dünyanın aparıcı qəzet və jurnalları, agentlikləri Ukrayna-Putin toqquşmasından nə yazır, dövlət rəsmiləri məsələ barədə nə düşünür.

ABŞ-ın "Financial Times" qəzetinin manşetindəki məqalədə Rusiya dövlət başçısının Ukraynanın şərqinə ordu yeritməsindən yazılıb. Xəbərdə ABŞ dövlətini təmsil edən şəxslərdən birinin "Putin Ukraynanın şərqini işğal etdiyini rəsmi olaraq təsdiqlədi" fikirləri yer alıb.

İsrailin "Haaretz" qəzeti Putinin "Donetsk və Luqansk Xalq Respublkaları"nın müstəqilliyini tanıdıqdan sonar Ukraynadan ayrılmaları üçün əmr verdiyi barədə xəbəri tirajlayıb. Xəbərdə həmçinin ABŞ və Avropa Birliyinin verdiyi reaksiyalar barəsində də yazılıb və Rusiyaya qarşı ciddi addımların atılacağı barədə NATO-nun müqeyi də dərc edilib. "Haaretz" yazır ki, məsələ ilə bağlı açıqlamalarında İsrailin rəsmi dairələri Baydenin yanında olacaqlarını bəyan ediblər. Xarici işlər naziri Yair Lapid isə məsələyə yanaşmada bir az təmkinli olmağı, Rusiyanın hədəfinə çevrilməməyi tövsiyə edib.

ABŞ-ın tanınmış "Washington Post"un mançetini də Rusiyanın Ukraynanın şərqinə qoşun göndərməsi barədə xəbər bəzəyib. "Putin Moskvadan dəstək alan hər iki "respublika"nı rəsmən tanıdıqdan sonra ora əsgər göndərdi" manşeti ilə dərc olunan qəzetdə yazılan digər xəbərlərdə Rusiya prezidentinin bu qərarı gec ya tez başlanması gözlənilər savaşı körüklədiyi qeyd edilib.

"Putinin Ukraynanın şərqinə ordu göndərməsi Birləşmiş Millətlər Təşkilatında qınanıb" başlığını manşetinə çıxaran ABŞ-ın "New York Times" qəzetinin xəbərində "Putin daha geniş bir hərbi müdaxilə olacağının anonsunu verdi və Ukraynanın Rusiya tərəfindən yaradılmış bir ölkə olduğunu iddia etdi", yazılıb. ABŞ-ın BMT-dəki səfiri Linda Thomas-Greenfieldin sözlərinin yer aldığı xəbərdə deyilir ki, Putin bu addımları ilə geriyə, SSRİ-yə dönmək istəyini gizlətmir. Hətta bir az da ondan qabağa getmək, Rusiya imperatorluğunu qaytarmaq istəyir. Amma dünyanın geridə qalanlarını qaytarmaq olmaz.

ABŞ-da çıxan "The Wall Street Journal" qəzeti də Rusiya prezidentinin tanınmamış respublikaların təhlükəsizliyini təmin etmək üçün Ukraynanın şərqinə qoşun yeritməsini ilhaq adlandırıb. Qeyd edilib ki, əslində Rusiyanın bu addımı Qərblə münasibətlərin daha da kəskinləşməsinə səbəb olacaq: "Putinin bu addımı Şərqi Avropanın gələcəyinə təhdiddir və bu hərəkət Qərblə münasibətləri baltaladı".

"Putinin "sülhü qorumaq" məqsədilə Ukraynadan ayrılmaq istəyən bölgələrə ağır texnikalar göndərməsi Qərbi də hərəkətə gətirib. İngiltərənin Baş naziri Boris Conson baş verən hadisələri müzakirə etmək üçün kabineti bir araya gətirəcək". "Daily Mail" qəzetinin manşetində dərc olunan məqalədə deyilir ki, Putinin "DXR" və "LXR"-I rəsmi olaraq tanımasından bir neçə saat sonra Ukraynanın şərqindəki Donetsk şəhərində tanklar və içi əsgərlərlə dolu yük maşınları görünməyə başlayıb. Şəhər sakinlərindən birinin dediyinə görə, hələ indiyə qədər şəhərdə bu qədər hərbi texnika və əsgər görünməyib.

Avstralyanın "The Australian" qəzeti "Putin tətiyi çəkdi" adlı manşetində yazır: "Ukraynanın şərqindəki Donbassda bölgəsində üsyançıların əlində olan Donetsk və Luqansk şəhərlərini qorumaq məqsədilə Putinin hərbi qüvvə göndərməsi əslində Ukraynanın işğalıdır".

İtaliyanın "Corriere della Sera" qəzeti isə manşetinə "Putin Rus ordusunu Ukraynaya göndərdi" məqaləsini çıxarıb. Xəbərdə deyilir: "Rusiyanın dövlət başçısının Donbassın müstəqilliyinin tanıdıqdan sonra ordusuna "sülhü təmin etmək adı ilə Ukrayna ərazisinə girməyi əmr etdi.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "Komsomolskaya Pravda" radiosunun efirində Moskvanın Donetsk və Luqansk Xalq Respublikalarının (DXR və LPR) müstəqilliyini tanımasına Qərb ölkələrinin reaksiyasını proqnozlaşdırıla bilən adlandırıb. Zaxarova Qərb ölkələrinin son iki ayda yalan danışdığını da bildirib: "Onların necə reaksiya verəcəyini bilmirdik? Təbii ki, elədilər. Və məncə, son iki ay son dərəcə aşkar oldu. Yalan, yalan və yalan olacaq".












## Bəs dünya ölkələrinin məsələyə rəsmi münasibəti necədir?



**Bolqarıstanın baş naziri Kiril Petkov** Rusiyanın DNR və LNR-nin müstəqilliyini tanımasını pisləyib. Onun sözlərinə görə, ölkə Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəkləməyə davam edəcək. O, beynəlxalq hüquqa hörmət edilməli olduğunu vurğulayıb: "Biz, Avropa İttifaqı, onun müdafiəsində vahid cəbhə kimi çıxış edəcəyik".

**Fransa prezidenti Emmanuel Makron** da Rusiyanın qərarını pisləyib. Fransa lideri Moskvanın Donbass "respublikaları"nı tanıması ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb.






**Serbiya prezidenti Aleksandr Vuçiç** Rusiyanın DXR və LPR-nin müstəqilliyini tanımaq qərarından sonra dünya düzəninin dəyişdiyini açıqlayıb: "Bu, bütün qlobal təhlükəsizlik arxitekturasını, eləcə də siyasi təhlükəsizlik arxitekturasını məhv edir. Bu vəziyyət yəqin ki, bizim üçün ən çətin və yaxın 10-20 ilin ən çətinidir. Dünya nizamı dəyişir".



**Gürcüstan prezidenti Salome Zurabişvili** də öz növbəsində DXR və LPR-nin müstəqilliyinin tanınmasını Rusiyanın Abxaziya və Cənubi Osetiyanın suverenliyini tanıdığı 2008-ci il ssenarisinin təkrarı adlandırıb: "Gürcüstan Rusiyanın Donetsk və Luqansk vilayətlərini tanımasını qəti şəkildə pisləyir, bu, ssenarinin təkrarıdır, ardınca ərazimizin 20 faizinin işğalıdır. Gürcüstan sizi, prezident Zelenskini dəstəkləyir, biz isə ərazi bütövlüyünü və sülhü dəstəkləyirik".

**Almaniya Xarici İşlər Nazirliyi** Rusiyanı DXR və LXR-in müstəqilliyinin tanınması qərarını ləğv etməyə və Minsk razılaşmalarına uyğun olaraq diplomatiya yoluna qayıtmağa çağırıb. Departamentin rəhbəri Annalena Burbok bildirib ki, Moskvanın qərarı beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır və "hazırkı münaqişənin sülh və siyasi yolla həlli üçün bütün diplomatik səylərə ciddi zərbə vurur".



**Böyük Britaniyanın baş naziri Boris Conson** Moskvanın Donetsk və Luqansk Xalq Respublikalarının müstəqilliyini tanımasını beynəlxalq hüququn və Ukraynanın suverenliyinin pozulması adlandırıb.

NATO-nun baş katibi Yens Stoltenberq bildirib ki, Moskvanın Donbass respublikalarını tanımaq qərarı "münaqişənin həlli səylərinə zərbə vurur və Minsk razılaşmalarını pozur". O qeyd edib ki, alyans Ukraynanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və Rusiyanı "münaqişəni qızışdırmağı dayandırmağa və diplomatiyanı seçməyə" çağırır.

Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının (MDŞ) katibi Aleksiy Danilov bildirib ki, Ukrayna prezidenti Vladimir Zelenski videomüraciətində Kiyevin Rusiya prezidenti Vladimir Putinin DXR və LXR-in müstəqilliyini tanımaq qərarına rəsmi reaksiyasını açıqlayacaq.

**Ukraynanın keçmiş prezidenti Petro Poroşenko** isə qeyd edib ki, Kreml öz qərarı ilə dünyanı "yeni dünya müharibəsi astanasına sürükləyir". Siyasətçi vurğulayıb ki, Putin "qarşıdurmanı seçdi və nəhayət, soyuq müharibə dövründən sonra yaradılmış beynəlxalq hüquq və asayiş sistemini məhv etdi".

**Ağ Evin mətbuat katibi Cen Psaki** bildirib ki, ABŞ prezidenti Co Bayden Rusiyanın DXR və LPR-nin müstəqilliyini tanıması fonunda respublikaların investisiya, ticarət və maliyyələşdirilməsini qadağan edən fərman imzalayacaq: "Biz Rusiyadan belə bir addım gözləyirdik və dərhal cavab verməyə hazırıq. Prezident Bayden tezliklə ABŞ-ın Ukraynanın DXR və LPR bölgələrində və ya bu bölgələrdən yeni sərmayə, ticarət və maliyyələşdirməsini qadağan edən bir İcra Sərəncamı verəcək".

Beləliklə, dünya yeni və genişmiqyaslı müharibəyə hamilədir. Ağrılarının çox olacağı məlumdur, çünki problemləri zamanında həll etməyiblər. Bir sözlə müharibə ehtimalı çoxdur. Əsas odur ki, ədalət zəfər çalsın, haqlı uduzmasın.

***V.VƏLİYEV***

# Ermənistanın müdafiə nazirliyində nə baş verir?



## İstefaya göndərilənləri əvəzləyəcək yeni kadrların təyinatını Nikol Paşinyan sifarişlər əsasında verir

***44** günlük İkinci Qarabağ müharibəsindən sonra Ermənistan hakimiyyətinin müxtəlif rəsmi strukturlarında ciddi qarşıdurmalar, ziddiyyətlər bu gün də səngimir. Bu xüsusda, ölkənin müdafiə nazirliyində, eləcə də baş qərargahında bir-birinin ardınca istefalara göndərilmə halları, üstəlik bir çox yüksək rütbəli zabitlərə çoxsaylı cinayət işlərinin açılması silahlı qüvvələrin demək olar ki, fəaliyyətsiz quruma çevrilməsi isə hakimiyyətin çarəsiz vəziyyətdə növbəti çıxış yolları axtarmasına səbəb olmaqdadır.*

ANALİTİK

### Baş qərargahın rəisi Artak Davtyanın səlahiyyətləri məhdudlaşdırılacaq, sonra da istefaya göndəriləcək

SİA xəbər verir ki, bu barədə Ermənistan KİV-lərində də məlumatlar yayılmağa başlayıb. Misal üçün, ”Joğovurd” qəzetinin yazdığına görə, bundan sonra Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi paralel olaraq müdafiə nazirinin birinci müavini vəzifəsini də icra edəcək. Müvafiq təkliflə Ermənistanın müdafiə naziri çıxış edib və bildirib ki, qurum ”müdafiə haqqında” qanunda düzəlişlər etməyi düşünür. Lakin ona bu tapşırığın Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən verildiyi vurğulanır.

Bundan əlavə, baş nazirin, müdafiə nazirinin və baş qərargah rəisinin səlahiyyət dairələrinin də dəqiqləşdiriləcəyi bildirilir. Lakin ortada heç də bu rəsmi strukturun fəaliyyətinin yaxşılaşdırması deyil və əslində ortada fərqli məsələlər dayanıb. Bu məsələlər isə daxili ziddiyyətlərdən doğan faktlardır. Belə ki, adıçəkilən erməni nəşrinin yazdığına görə, əslində hakimiyyət ”düzəlişlər” adı altında Ermənistanın baş qərargahının rəisi Artak Davtyanın səlahiyyətlərini məhdudlaşdırmağa, ardınca isə istefaya göndərilməsinə çalışır.

### Soros fondu Ermənistanın müdafiə nazirliyinə də müdaxilə edir?

Digər erməni qəzeti - ”İrvanuk” isə yazır ki, bütövlükdə müdafiə nazirliyi strukturlarında köklü kadr dəyişiklikləri baş verəcək. Nəşrə yaxınlığı ilə seçilən mənbə bildirib ki, yeni kadrlar məhz Ermənistanın baş qərargahına yerləşdiriləcəklər.

”Gözlənilən dəyişikliklərin səbəblərini hətta hərbçilərin özləri də bilmirlər”, deyə yazan ”İrvaniuk” öz mümkün ehtimallarını irəli sürərək onu da iddia edir ki, bu kadrlar Soros fonduna bağlı olan adamlardırlar və bilavasitə baş nazir Nikol Paşinyana verilən sifarişin tərkib hissəsidir.

***Rövşən RƏSULOV***

# “Moskva Bəyannaməsi ölkəmizin milli təhlükəsizliyinin qorunmasını təmin edir”

*"Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının yüksək səviyyəli əlaqələri tarixi əsaslara söykənir və bu əsaslar iki ölkə Prezidentləri arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq münasibətində formalaşıb. Moskvada ölkəmizlə Rusiya arasında imzalanmış Bəyannamə isə bu münasibətləri daha dərin köklərə bağlayacaq". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyasının (YAP) Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov bildirib.*



Onun sözlərinə görə, Rusiya Azərbaycanın qonşusu, dünyanın ən güclü ölkələrindən və BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir və bu amil həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, ölkələrimiz arasında tarixən dərin mədəni, humanitar, iqtisadi əlaqələr mövcuddur: ”Əbəs deyil ki, Rusiyada milyonlarla azərbaycanlı yaşayır, işləyir və Azərbaycanda kifayət qədər Rusiya şirkətləri fəaliyyət göstərirlər, həmçinin, ölkəmizdə rus dilinə böyük qayğı və dəstək göstərilir, rusdilli təhsil müəssisələrimiz fəaliyyətdədir. Bütün bunlar isə qeyd edilən fikirləri isbatlayır”.

”Başqa tərəfdən, Vətən müharibəsində əldə etdiyimiz zəfərdən sonra Cənubi Qafqazda yeni bir regional nizam, konfiqurasiya formalaşır ki, bu yeni konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Bu mənada, hər iki ölkə ilə müttəfiqlik bəyannamələrinin imzalanması bu yeni konfiqurasiyanı rəsmən təsbit edir”, deyən YAP Şabran rayon təşkilatının sədrinin sözlərinə görə, söz yox ki, qazandığımız hərbi zəfərin siyasi-diplomatik cəbhədə daha da möhkəmləndirilməsi, Azərbaycanın regionda yaratdığı yeni reallığın tam olaraq qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir: ”Hər iki Bəyannamə bu məqsədə xidmət edir. Habelə sürətlə dəyişən, təhdidlərin durmadan artdığı bir dünyada bütün güc mərkəzləri ilə münasibətləri ən yüksək səviyyəyə çatdırmaq ölkəmizin milli təhlükəsizliyinin qorunmasını təmin edir”.

Mehdi Balabəyov Bəyannamədəki mühüm bəndləri xatırladaraq vurğulayıb ki, bundan sonra hər iki ölkə öz ərazisində hər hansı bir təşkilat və şəxslərin digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını alacaqlar və eləcə də Dağlıq Qarabağ münaqişəsinə son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın, həmçinin 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsinin vacibliyi vurğulanır: ”Təbii ki, Bəyannamədə beynəlxalq terrorçuluq, ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq və digər bu tipli təhdidlərin qarşısının alınması üçün də səylərin birləşdirilməsi qeyd olunur və biz daha bir qənaətə də gələ bilərik ki, iki ölkə arasında qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığın dərinləşdirilməsi və onların keyfiyyətcə yeni səviyyəyə qaldırılması öhdəliyidir. Bu xüsusda, hər iki tərəf bir-birinin maraqlarına zərər vuran istənilən iqtisadi fəaliyyətin həyata keçirilməsindən çəkinmək öhdəliyi götürürlər”.

Mehdi Balabəyovun qeyd etdiyinə görə, bütün bunlardan nəticə çıxara bilərik ki, Azərbaycan digər tərəfdaşlarla da münasibətləri daha da inkişaf etdirmək üçün öz uğurlu səylərini davam etdirəcək.

***Rəfiqə HÜSEYNOVA***

# “Deyəsən, İran da artıq bu reallıqla barışıb”

## ..."Həyat bayramı"nın" yad insanları?



“...Bu bəyannamə hər iki ölkənin təhlükəsizliyinin və regiondakı sabitliyinin qarantıdır”.

”...Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur”.

”...Müttəfiqlik bəyannaməsi Rusiya və Azərbaycan üçün eyni dərəcədə faydalıdır”.

Bir daha xatırladaq ki, ötən gün Moskvada Azərbaycan və Rusiya Prezidentləri İlham Əliyev və Vladimir Putin arasındakı danışaqların yekunu olaraq müttəfiqlik, əməkdaşlıq haqqında bəyannamə imzalanıb. Qeyd edək ki, bu bəyannamənin böyük əhəmiyyət kəsb etdiyini təkcə hər iki dövlət nümayəndələri deyil, hətta başqa xalq nümayəndələri də etiraf edirlər. Deyim ki, yuxarıda təqdim edilən fikirlər də, Moskva Bəyannaməsi ilə bağlı səsləndirilən çoxsaylı rəylərdən bəzi nümunələridir.

Bəli, Moskvada iki dövlət rəhbəri tərəfindən imzalanan müttəfiqlik bəyannaməsi regionda sülhə, təhlükəsizliyə böyük bir önəm verəcək deyə çoxları tərəfindən yüksək səviyyədə təqdir edilir.

Amma, nədənsə, iki ölkə rəhbəri tərəfindən təqdim edilən belə bir humanist bəyannamə həmişə olduğu kimi, bu dəfə də ermənilər tərəfindən ”bəyənilmir”. Hətta ermənilər Ermənistanda Rusiyanın bu əməlinə etiraz demirəm, sadəcə olaraq, hiddətlənməyə belə cəsarət etməyən ölkə rəhbərinin olduğuna ”təəccüblənirlər”.

Maraqlıdır ki, bəzi erməni saytları dolayı şəkildə olsa da, tərəflərin, ”...yəni Bakı ilə Moskvanın məqsədlərinə çatdıqlarını” ”etiraf” edib ”...vay bizim halımıza” deyərək, ”erməni yazıqlığı” nümayiş etdirməyə başlayıblar. Bəli, adıyla tanınan məlum ”erməni yazıqlığı” ... o da maraqlıdır ki, ermənilər hətta, Azərbaycan tərəfinin Qərbin qəzəbli reaksiyasından, Ukraynanın qınaqlarından qorxmadığına da ”təəccüblərini” gizlətmirlər.

”...Bu gün Azərbaycanın hər şeyi var, bəs, bizim nəyimiz var?”. Deyim ki, daha çox həqiqəti özündə əks etdirən, erməni etirafıdır. Amma maraqlı da olsa, hazırda ermənilər”heç nələrinin olmaması”nın günahını da ruslarda görürlər. Təbii ki, ermənilərə görə, bunu da ”qəbul etmək” olar. Amma Moskvanın Bakıya böyük ”etimad göstərib” bu ölkə ilə müttəfiqlik münasibətlərini özündə əks etdirən 43 bənddən ibarət sənəd imzalamasını heç cür qəbul etmək istəmirlər. Ermənilərə görə, bu rusların onlara olan müttəfiqlik münasibətlərini şübhə altına almış olub. Əslində, ermənilər Kremlin Bakı ilə İrəvanı eyni bərabərhüquqlu müttəfiq kimi görməsini heç cür həzm etmək istəmirlər.

Qeyd edək ki, onlara yer edən bəyannamədəki tərəflərin ”...silahlı qüvvələri arasında qarşılıqlı fəaliyyəti, o cümlədən birgə əməliyyat və döyüş hazırlığı tədbirlərinin keçirilməsini, habelə ikitərəfli hərbi əməkdaşlığın digər sahələrini inkişaf etdirəcəkləri” barədə müddəadır.

Onu da qeyd edək ki, bu müddəa bəyannamənin 13-cü bəndində öz əksini tapıb.

”...Deməli, 44 günlük müharibə dövründə biz ermənilərə ən müasir silahlarını verməkdən imtina edən Rusiya indi Azərbaycanla belə bir bəyannamə imzalayır?”.

Bu arada ermənilərə başqa cür yer eləyən isə Azərbaycan tərəfinin xüsusi bəyanatla çıxış edib, bütün erməni silahlı qüvvələrinin ”artsax”dan çıxarılması və kommunikasiyaların açılmasında Ermənistanın qanuni öhdəliyini onlara xatırlatmasıdır.

Erməni saytlarının yazdığına görə, Azərbaycan tərəfi guya bunun əvəzində onlara heç nə təklif etməyib: ”....Ümumiyyətlə, Bakı bizi fakt qarşısında qoyaraq, İrəvanın fikrini nəzərə almadan regiondakı vəziyyətlə bağlı danışıqların mümkün və zəruri olması tezisini getdikcə daha çox təbliğ edir. Belə görünür ki, Rusiya da artıq bununla razıdır və Türkiyə də buna öz töhfəsini verir. Ermənilərin son ümid yeri olan İran isə yeni reallıqla, deyəsən, çoxdan barışıb”.

”...Belə görünür ki, biz ermənilər, həqiqətən, başqasının həyat bayramında artıq yad insanlara” çevrilirik. Bunu da ermənilər ərz edirlər, özü də ”erməni yazıqlığı” ilə...

***Ağasəf Babayev***

# Bəşəri dəyərlərə və beynəlxalq hüquq normalarına zidd olan Xocalı soyqırımı

***Dünya tarixində nə qədər qətliamlar, soyqırımlar olsa da, Azərbaycanda baş verən Xocalı soyqırımı yanında sönük görünür. Bir gecədə Xocalının yerlə yeksan olunması tarixdə görünməmiş hadisədir. Eləcə də bir gecənin içində insanların vəhşicəsinə məhvi insanlığa sığmayan vəhşiliyin təzahürüdür. Uşaq, qoca və hamilə qadınlara qarşı qəddarlıq insanlığa qarşı törədilmiş bəşəri cinayət kimi dəyərləndirilir. Beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 30 il ötür.***




Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı xalqımızın növbəti faciəsini yaşadığı bir tarixdir. Xocalı haqqında həqiqətin dünyada bilinməsi, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı "Xocalı soyqırımı günü" elan edilmişdir. 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırmışdır. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılmış, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olmuşdur. Təbii ki, törətdilən vəhşiliklər insanlarda erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır. Soyqırımı milli düşüncə tərzimizə, milli dəyərlərimizə, milli əxlaqımıza o dərəcə nüfuz etmişdir ki, faciənin törəmə tarixini keçmiş kimi qəbul edə bilmirik.

Xatırladıq ki, yeddi min əhalisi olan Xocalı, erməni terrorçu qrupları keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibində olan 366-cı alayının köməyi ilə müxtəlif növ silahlardan atəşə tutularaq, yerlə yeksan edilmişdir. Qəddarcasına həyata keçirilmiş terror əməliyyatı nəticəsində, 613 nəfər şəhid olmuş, onlardan 56-cı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 487 nəfər ağır yaralanmış, 1430 nəfər əsir götürülərək amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır.



### 70 İLDƏN ÇOX MÜDDƏTDƏ TƏDQİQATÇILAR MƏXFİ ARXİVLƏRƏ YAXIN BURAXILMAMIŞDIR

Tarixi reallıqlar bizə deməyə əsas verir ki, 1917-ci ildə Rusiyada çar hökuməti devrildikdən sonra, Almaniya və Avstriya cəbhələrində xidmət edən minlərlə erməni əsgəri öz silahları ilə daşnaqların niyyətlərini həyata keçirmək üçün Bakıda cəmləşiblər. Bəzən böyük dövlətlər müharibə ocaqlarının yaranmasında ermənilərdən istifadə ediblər. 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Cənubi Qafqazdakı tarixi ərazilərində etnik təmizlənmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə Azərbaycan türkləri, erməni daşnakları tərəfindən kütləvi surətdə qətllərə yetirilmiş, ata-baba yurdlarından deportasiyalara məruz qalmışlar. Azərbaycanın taleyi ilə bağlı olan bu tarixi məsələlərin öyrənilməsi 70 ildən çox müddətdə qadağan edilmiş, tədqiqatçılar məxfi arxivlərə yaxın buraxılmamışdır. XX əsrin əvvəllərində türklərin başlarına gətirdikləri qanlı faciələrdən doymayan ermənilər, illər uzunu fürsət düşdükcə, xaricdəki türk diplomatlarına və iş adamlarına qarşı terror əməliyyatları aparmışlar.

Ötən əsrin son illərində isə başlanan hadisələr zamanı ermənilər Azərbaycana qarşı ərazi iddiası ilə çıxış edərək torpaqlarımızın 20 faizini işğal etmişdirlər. Belə ki, 1988-ci ildən başlayaraq, ermənilər tərəfindən dünya ictimaiyyətinin gözü qarşısında Azərbaycanın tarixi torpaqları olan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı kimi məkanlarımız işğal olundu. 44 günlük Vətən müharibəsində Azərbaycan 30 ilə yaxın işğalda olan torpaqlarını azad etdi.

Bir faktdır ki, 1989-cu ilin dekabrında Ermənistanda baş verən zəlzələ nəticəsində, ora xarici ölkələrdən əsasən də, qərbdən, Suriyadan, Livandan, Beyrutdan və başqa yerlərdən, ərzaq əvəzinə, təyyarələrlə silahlar daşınmışdır. Sonralar bu bizlərə bəlli oldu. Yeri gəlmişkən qeyd edək ki, Ermənistanda zəlzələ zamanı, ata-analarını itirmiş 5 yaşından 12, 13 yaşlarına kimi, uşaqların dünya ermənləri tərəfindən qəyyumluğa götürüldüyünün teleefir və mətbuat vasitəsi ilə, şahidi olduq, o cümlədən bu uşaqların bir qismini isə, Macarıstan ermənləri də, qəyyumluğa götürdülər. Bəlkə də, həmin bu, erməni uşaqları indi Macarıstanda lazımi yerlərdə erməni xislətinə xidmət edirlər.

### ERMƏNİLƏRİN İLK AZĞIN ƏMƏLLƏRİ 1988-Cİ İL FEVRALIN 12-DƏ ƏSGƏRANDA BAŞLADI

Azərbaycan xalqının başına gətirilən Xocalı faciəsi bəşəri dəyərlər və beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edir. Qətliamın köçürüldüyü lentlər saxlanılır. Bu kadrlara baxdıqca ermənilərin türk qanına necə susadığının şahidi oluruq. Həqiqətən də, ermənilər türk qövmünə qarşı düşmənçilik mövqeyindədirlər. Bunun isə tarixi kökləri olduqca qədimdir. Ümumiyyətlə, türk dünyasının inkişafını istəməyən ermənilər bizə qarşı informasiya müharibəsində əllərindən gələni ediblər. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuşdur. 1988-ci ildən Qarabağ ətrafında başlayan hadisələr kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi. Əlbəttə ki, bu hadisələrin həyata keçirilməsinə çoxdan hazırlıq gedirdi. Həmin vaxtlar isə ermənilərə havadarlıq edənlər, xüsusilə də, M.Qorbaçovun hakimiyyətə gəlməsilə bu proses daha da sürətləndi. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar da bunu hiss edirdi. Həmin vaxt Bakıya tez-tez məlumatlar verilirdi, ancaq bu, cavabsız qalırdı. Ermənilərin ilk azğın əməlləri 1988-ci il fevralın 12-də Əsgəranda başladı. Moskva bütün bunlara qarşı nəinki susurdu, hətta ermənilərə kömək də edirdi. Bu cür addımlar 1918-1920-ci illərdə də baş verib. Xocalının coğrafi mövqeyinə gəldikdə isə, bu şəhər erməni yaşayış məntəqələrinin tam əhatəsində idi. Xocalı nisbətən düzənlikdə, erməni yaşayış məntəqələri isə bundan yuxarıda yerləşir. Yəni Xocalıdakı hadisələri ermənilər rahat müşahidə edirdilər. Xocalı 1991-ci il noyabrın 1-dən 1992-ci il fevralın 25-nə qədər mühasirə şəraitində qaldı. Bütün əlaqələr vertolyotla, telefonla qurulurdu. Hadisə baş verəndə qaçıb canını qurtarmaq istəyən Xocalı sakinlərinin qabaqcadan xüsusi düzəldilmiş pusqulardan avtomat, pulemyot və digər silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırımı niyyətini bir daha sübuta yetirir. Beynəlxalq hüquq normalarına görə soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür.

***Zümrüd BAYRAMOVA***

# Bölgədə sülhün və iqtisadi inkişafın qarantı - Zəngəzur dəhlizi

***Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi son addımlar zamanımızın ən aktual məsələlərindəndir. İstər ölkə ictimaiyyəti, istər region ölkələri, istərsə də dünya bu prosesi maraqla izləyir. Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında torpaq rabitəsinin təmin edilməsi məsələsi Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci ildə imzaladıqları birgə Bəyanatda əksini tapmışdır. Bu əlaqəni Zəngəzur dəhlizi tərəfindən təmin etməlidir. Hazırda Azərbaycan tərəfindən bu dəhlizin açılması istiqamətində ciddi işlər görülür.***




*Bu dəhliz, nominal ÜDM-i 1,1 trilyon ABŞ dollarından çox olan türkdilli ölkələri birləşdirməklə yanaşı, Azərbaycanın regionda və dünyada strateji əhəmiyyətini daha da artıracaqdır*

Ötən il fevralın 14-də İlham Əliyev Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşması nəzərdə tutulan layihələrdən birinin - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin təməlini qoyaraq Azərbaycanın 10 noyabr Bəyanatının müddəalarına sadiqliyini bir daha göstərdi. Dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq 70 faizi tamamlanıb. İşğaldan azad edilən Cəbrayıl rayonunun Mahmudlu stansiyasına qədər 23 kilometrlik məsafədə relslər qoyulub və yolun sazlanması işlərinə başlanılıb. Tikinti işləri 3 mərhələdə həyata keçirilir. Birinci mərhələ Horadiz, Mərcanlı, Mahmudlu stansiyalarını əhatə etməklə 30 km, ikinci mərhələ Soltanlı, Qumlaq stansiyalarını əhatə etməklə 55 km, üçüncü mərhələ isə Mincivan, Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 25,4 km təşkil edir. Layihə çərçivəsində 8 stansiya, 3 tunel, 41 körpü, 3 qalereya, 4 yolötürücü və ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Birinci mərhələ üzrə artıq torpaq işlərinin 90 faizi yerinə yetirilib, 40 suötürücü boru, 9 körpü, 2 heyvan keçidi, 52 ehtiyat keçidi tam tikilib. Yolun 23 km-lik hissəsində üst quruluşu elementləri quraşdırılıb. Bununla da Füzulinin Horadiz stansiyasından Cəbrayılın Mahmudlu stansiyasına qədər işçi qatarların hərəkəti üçün zəruri şərait yaradılıb. Hazırda 60 km-dən çox ərazi minalardan təmizlənib. 50 km-lik hissədə layihələndirmə işləri yekunlaşıb.



Qeyd edək ki, Ermənistan tərəfi öncə müxtəlif bəhanələrlə üzərinə düşən öhdəliyin icrasını gecikdirmək istəyirdi. Ancaq təzyiqlərdən sonra dəhlizin Ermənistan ərazisindən keçən hissəsində dəmir yolu xəttinin çəkilişlərinə start verilib. Göründüyü kimi, ölkəmiz bölgədə qalıcı sülh və sabitliyin bərqərar olmasına, beynəlxalq hüququn ali prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət əsasında yeni əməkdaşlıq formatları çərçivəsində münasibətlərin normallaşdırılmasına tərəfdardır. Bu baxımdan Zəngəzur dəhlizi uğurlu regional əməkdaşlıq nümunəsi olmaqla yanaşı, bölgədə sülhün və sabitliyin möhkəmlənməsinə də öz töhfəsini verəcəkdir. Eyni zamanda bu proses dünyada yük daşımalarının həcminin artdığı bir dövrdə, Xəzər dənizində su nəqliyyatının inkişafında da böyük rol oynayacaqdır. Belə ki, bu dəhlizin Avropa və Asiya ölkələri arasında qitələrarası yeni alternativ nəqliyyat şəbəkəsinin formalaşmasında əhəmiyyəti olduqca yüksəkdir. Bu baxımdan Zəngəzur dəhlizi Uzaq Çin və Qərb dünyası arasında yeni nəqliyyat yolu kimi yükdaşımaların fasiləsiz və səmərəli şəkildə daşınmasında önəmli ticarət marşrutu kimi də çıxış edərək Azərbaycana və bütün iştirakçı ölkələrə yeni dividentlər qazandıracaqdır.







Zəngəzur dəhlizi otuz ilə yaxın çətin blokada şəraitində yaşamasına rəğmən öz inkişaf yolunu uğurla qət etmiş Naxçıvan Muxtar Respublikasının da Azərbaycanın əsas ərazisinə çıxışını təmin edəcəkdir. Dəhliz, eyni zamanda, Naxçıvan Muxtar Respublikası vasitəsilə qardaş ölkə Türkiyə Cümhuriyyəti ilə əlaqələri də möhkəmləndirəcək və bu əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir. Beləliklə, qardaş ölkələr uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə qovuşacaqlar. Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla dünyada ciddi böyük potensiala və gücə malik Türkiyə arasında olan bu birlik Cənubi Qafqazda sülhə, sabitliyə və əməkdaşlığın bərpa olunmasında müsbət dəyişikliklərə töhfə verəcəkdir. Bu baxımdan Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ümumilikdə türk dünyasının coğrafi baxımından birləşməsi deməkdir.

Bu, təkcə coğrafi və siyasi anlamda deyil, həmçinin böyük iqtisadi gücə malik və nominal ümumi daxili məhsulu 1,1 trilyon dollardan çox olan türkdilli dövlətlərin strateji və iqtisadi cəhətdən birləşməsi də deməkdir. Belə ki, Türkiyə 761,4 milyard dollar, Qazaxıstan 181,7 milyard dollar, Özbəkistan 57,9 milyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızıstan 8,5 milyard dollar nominal ÜDM-ə malik ölkələrdir. Bu isə Zəngəzur dəhlizinin kifayət qədər yüksək iqtisadi potensiala və təbii resurslara malik olan böyük və geniş coğrafi ərazidə birləşdirən önəmli nəqliyyat infrastrukturu olduğunun bariz sübutudur.

Prezident İlham Əliyevin də vurğuladığı kimi: "Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün...".

**Sevinc Azadi**

# Sosialyönümlü layihələr uğurla icra olunur

## *Cari ildə 1200-dək işsiz və işaxtaran şəxsə aktivlər təqdim edilib*



***Ölkəmizdə sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaradıb. Sahibkarlara ayrılan diqqətin nəticəsidir ki, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu. Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" məlum Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir.***

Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu. Azərbaycanda məhz dövlət səviyyəsində və bütün ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.

Qeyd edək ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması bu sahədə mühüm addımların atılmasında əhəmiyyətli rol oynadı. Sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılması yolu ilə əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəlib. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə sosialyönümlü layihələrin həyata keçirilməsidir. Layihələrə cəlb olunan insanlar müəyyən müddətdən sonra heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq, tərəvəzçilik (istixana), pərakəndə satış kimi istiqamətlər üzrə uğurlu şəkildə özünməşğulluq fəaliyyəti qurublar.

Əhalinin məşğulluq imkanlarının artırılması, bölgələrdə sosial infrastrukturun yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali təbəqələrinə dövlət qayğısının artırılması yönündə həyata keçirilən tədbirlər insanlarda məmnunluq yaradır. Ailə biznesinin qurulması və inkişafı da sosialyönümlü layihələr sırasında uğurlu hesab olunur. Təbii ki, bunun böyük nəticələri var.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının yüksək səviyyədə icrası və özünüməşğulluq fəaliyyətinin təşkili ilə əlaqədar müvafiq normativ-hüquqi bazanın formalaşdırılması istiqamətində ardıcıl işlər görülüb. Bu gün ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi sağlam biznes mühitini yaradıb. Təbii ki, bu da fərdi təsərrüfata sahib olan iştirakçılar onların özünüməşğulluğunun təmin olunması, ailə gəlirlərinin artırılması, ümumən biznes imkanlarına malik olmaları üçün yaradılan şərait onlarda məmnunluq hissini yaradır.

Məlumdur ki, Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilib. Sözügedən Strategiyaya əsasən, iqtisadiyyatda rəsmiişləyənlərin qeyri-kənd təsərrüfatı sahəsində ümumi məşğul əhaliyə nisbətini 2030-cu ilədək 80 faizə çatdırmaq nəzərdə tutulub.



2030-cu ilədək işsizliyin səviyyəsinin 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirilməsi nəzərdə tutulub. Yüksək əlavə dəyər yaradan və çox əmək sərf olunan sahələrə diqqət yetirməklə, iqtisadi məhsuldarlığın daha yüksək səviyyəyə qalxmasına nail olmaq və 2030-cu ilədək əmək məhsuldarlığını 2 dəfəyə qədər artırmaq nəzərdə tutulub. 2030-cu ilədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmağa nail olunacaq.

Onların mühüm hissəsini şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları təşkil edir. Qeyd edək ki, özünüməşğulluq proqramı üzrə son bir həftədə 400-dən çox şəxs üçün kiçik bizneslər yaradılıb. Onların mühüm hissəsi şəhid ailələrinin üzvləri və qazilərdir. Həftə ərzində paytaxt və regionlarda daha 406 işsiz və işaxtaran şəxsə mal və materiallar formasında aktivlər təqdim edilməklə onlar üçün kiçik bizneslər yaradılıb.

Bu ilin əvvəlindən proqram çərçivəsində ümumilikdə 1200-dək işsiz və işaxtaran şəxsə aktivlər təqdim edilib. Təbii ki, özünüməşğulluq proqramının praktik icrası nəticəsində artıq kifayət qədər göstəricilər var. Belə ki, özünüməşğulluq proqramının praktik icrası çərçivəsində işsiz və işaxtaran vətəndaşlar üçün təşkil olunan təlim kursları keçirilir, uğurlu biznes planlara malik şəxslərin ailə təsərrüfatlarını yaratmaları üçün aktivlərlə - mal və materiallarla təminatı reallaşır.

Görülən tədbirlər deməyə əsas verir ki, Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Plastik tullantıların neçə faizi təkrar emala çevrilir?

***Dünyada plastik tullantıların ancaq 9 faizi təkrar emala çevrilə bilir. SİA-nın əldə etdiyi məlumata görə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) "Qlobal plastik görüntüsü" hesabatını yayıb. Hesabatda 2000-ci ildə dünyada 234 milyon ton olan plastik istehsalının 2019-cu ildə 460 milyon tona, 2000-ci ildə 156 milyon ton olan plastik tullantıların miqdarının isə iki dəfədən çox artaraq 353 milyon tona çatdığı bildirilib.***

Hesabatda deyilir ki, plastik tullantıların yalnız 9 faizi təkrar emal zamanı itkiləri nəzərə alaraq uğurla təkrar emal olunur. Qlobal plastik tullantıların 19 faizi yandırılır. Təxminən 50 faizi poliqonlara, qalan 22 faizi isə nəzarətsiz poliqon və ətraf mühitə atılır. 2019-cu ildə qlobal istixana qazı emissiyalarının 3,4 faizini plastiklər təşkil edib.

Qlobal plastikdən istifadənin ümumi azalmasına baxmayaraq, "Covid-19" epidemiyası zamanı son 2 ildə qoruyucu vasitələr və birdəfəlik plastik tullantılar artıb.

"Covid-19" epidemiyasının ilk ili olan 2020-ci ildə plastikdən istifadə iqtisadi fəaliyyətlərin azalması ilə əvvəlki ilə nisbətən 2,2 faiz azalıb, tək plastikdən istifadə artıb ki, bu da bütün iqtisadiyyatlar toparlandıqca plastik istifadənin yenidən artması gözlənilir. OECD aşağı və orta gəlirli ölkələr üçün ildə 25 milyard avro inkişaf yardımı da daxil olmaqla, tullantıların idarə edilməsi infrastrukturunun təkmilləşdirilməsinə beynəlxalq yanaşmaya çağırıb.



# Xeyirxah və vətənpərvər sahibkar

*Bir müddətdir ki, "Sumqayıt Dostlar Klubu"nun idarə heyyətində təmsil olunduğumuz Akif Şahbazovun orijinal düşüncə tərzi, həyata, dövlətçiliyə, müasir sahibkarlığa, işsizlik problemlərinin həll olunmasına aid maraqlı fikirləri mənim xoşuma gəldiyinə görə, belə qərara gəldim ki, Akif Şahbazovla çoxminli oxucularımızı da yaxından tanış edim və onun bu orijinal fikirlərini onalarla da bölüşüm. Gəlin danmayaq ki, bu gün Azərbaycan dövlətinin inkişaf etməsi üçün orijinal düşüncəli, yüksək təfəkkürli insanlara çox böyük ehtiyacı var. Elə bu vaxt, dahi Şəhriyarın bir maralı deyimi yadıma düşdü:*

-Bizdən qabaqdadır avropalılar,
İşi-işbilənə tapşırır onlar.

Akif Şahbazov uzun illərdir ki, məktəb malları və dəftərxanal ləmazimatları istehsal etmək sahəsində ən yaxşı mütəxəssis olub və yaratdığı böyük mətbəə, poliqrafiya respublikada tanınır. Burada həm də bədii, sənədli kitablar çap etdirməklə və bu kitabları da öz mağazalarında satdırmaqla, çox böyük müştəriləri, kitabsevərləri də ətrafına toplaya bilib Akif Şahbazov. Sumqayıtdakı bütün məktəblilər və yaşlı oxucular məhz Akif Şahbazovun rəhbəri olduğu mağazalara gəlirlər. Çünki bu mağazalarda Sumqayıtdakı bütün mağazalardan həm məktəbli mallarına, dəftərxana ləvazimatlarına və həm də kitablar çox ucuz qiymətə satılır. Bu məhz elmlə, ziyalılarla bağlı olduğuna görə Akif Şahbazov bu işi özünə müqəddəs iş və şərəf bilir.

**-Akif müəllim. Söhbətimizin əvvəlində siz dediniz ki, hər hansı bir məktəblinin Sumqayıtda tapa bilmədiyi kitabı gəlib bizim mağazadan çox ucuz qiymətə tapmasını özümə şərəf bilirəm.**

-Bəli, elədi. Çünki tərif üçün demirəm. Mən də orta məktəbi əla qiymətlərlə oxuduğuma görə, kitaba marağım çox böyük idi. Kitaba marağı olan məktəblinin də istədiyi və çətin iapılan kitabları gəlib bizim mağazadan almasına həm o, özü sevinir, həm də biz sevinirik. Onların bu sevinci mənə elə xoş gəlir ki, yadıma özümün məktəb illərində axtardığım kitabı tapanda sevinməyim yadıma düşür. Bu sevinci də sözlə ifadə etmək çətindir. Bununla da həmin məktəbli bizim mağazanın daimi alıcısı olur. Dostlarını da bura gətirir. Eləcə də yaşlı oxucular da bir dəfə bizim mağazaya gəlməklə və burada olan qiymətlər onları tam qane etdiyinə görə, həmişə bizim mağazanın alıcısı olurlar. Onlar istədiyi kitabı biz, haradan olsa tapıb, onun istədiyi qiymətə gətiririk. Biz artıq otuza qədər məktəbli və məktəbə qədər uşaqlar üçün də kitablar çap etmişik. Bu kitabları həm müəllimlər və həm də şagirdlər böyük həvəslə alırlar. Məhz buna görə də Sumqayıtdakı bütün məktəblər bizimlə işləyirlər. Çünki bu kitablar bizim mağazada başqa mağazalardan çox ucuz qiymətədir. Mən qətiyyətlə deyirəm ki, təhsil millətimizin gələcəyidir. Təhsilsiz uğur yoxdur. Əgər biz dünya ölkələrində ermənilərə qalib gəlmək istəyirksə, mütləq təhsilli olmalıyıq. Təhsilimiz yoxdursa, biz düşmənlərimiz ermənilərə və başqalarına qalib gələ bilmərik. Çox şükür ki, Azərbaycan dövlətində təhsilə böyük önəm verilir. Dünyanın heç bir ölkəsində belə bir statistika yoxdur bir sinifdə oxuyan 20 şagirdin hamısı ali məktəbə qəbul olunur. Bu, Azərbaycanda var, özü də Sumqayıt şəhərində. Sumqayıt məktəbliləri hər il olimpiadalarda birinci yerə çıxırlar. Bu da sevindirici haldır. Çünki biz sevinirik ki, həmin məktəblilər bizim mağazalardan da lazım olan kimi bəhrələnirlər.

*Akif Şahbazov: " Mən qətiyyətlə deyirəm ki, təhsil millətimizin gələcəyidir. Təhsilsiz uğur yoxdur. Sahibkarlıq isə ən böyük ibadətdir"*



**-Sahibkarlıqla bağlı hər adam bir cür düşünür. Amma sahibkarlıq milli burjuaziyamızın yaranması deməkdir. Əgər ölkəmizdə sahibkarlar çox olarsa, iş yerləri də çox olar və bu sahibkarlar ölkə iqtisadiyyatının inkişafına da böyük köməklik edərlər. Ona görə də dünyanın inkişaf etmiş ölkələri sahibkarlara böyük şərait yaradırlar. Siz bilən, əsl sahibkar necə olmalıdır?**

-Sahibkar olan insan, neytiral olmalıdır. Heç bir siyasətə, dövlətin işinə qarışmamalıdır. Sahibkar olaraq yalnız arzulamalıdır ki, nələrisə qursun, yaratsın. İşçi sayını artırsın. Mənim düşüncəmə görə əsl sahibkar pulu hesablamamalıdır. Əsl sahibkar pul haqqında düşünməməlidir. Sadəcə işinin genişləndirilməsi, perspektivi, əmək şəraitinin yaxşılaşdırılması, işçilərin funksiyası və ən əsası da yüksək mütəxəssis olan işçilərinin sayının artrılmasına çalışmalıdır. Sahibkarlıq ən böyük ibadətdir. Çünki sahibkar öz işçilərinə yaxşı əmək haqqı verirsə, onun işçilərinin ailə üzvləri yaxşı yaşayırsa, bax, bu elə ibadətdir. Sahibkarlıq halal zəhmətlə qazanılan işi ilə, rəqabətdən qorxmayan insan olmalıdır.

**-Sizin təşkilatınızda işləyənlər Azərbaycanın bütün bölgələrindən olan, bacarıqlı insanlardır. Eşitmişəm ki, sizin yerlibazlığa, qohumbazlığa, tayfabazlığa münasibətiniz çox pisdir. Bu, doğrudanmı belədir?**

- Mən təkcə sahibkar deyiləm və həm də kadr hazırlayan rəhbərəm. Onlara əmək haqqı verə-verə gördüyü işləri də öyrədirəm. Bizim sahəmiz qeyri spesifik sahədir. Bura ərzaq mağazası deyil. Ona görə də burada işləmək çox çətindir. Gərək bu sahədə işləyənlər insanların xarakterini mükəmməl bilməli, alıcılara xoş rəftarı həddindən artıq çox olmalıdır. Hətta müştərilərə satdığı məhsulun adının niyə belə olduğunu, keyfiyyətinin hansı formada olmasını, hətta yazıçıların kitabı və məktəb kitabları haqqında onların məlumatı olmasına qədər hər şeyi öyrədirik. Adi bir misal. Adamların çoxu bilmir ki, Vatman kağızı niyə belə adlanır? Biz satıcılara öyrədirik ki, bu kağızı Vatman soyadlı adi bir insan icad elədiyinə görə, onun şərəfinə Vatmaq kağızı adlanır. Bizim sahədə satıcı ən gözəl peşədir. Hətta valideynlərə məsləhət görərdim ki, övladlarının gələcək uğurlarını görmək istəyirlərsə, qoy onlar satıcı işi ilə həyata başlasınlar. Bu sahədə insanlarla təmas qurduqca onları daha yaxşı tanıya bilərlər. Çünki satıcı ilk gündən özündə böyük cavabdehlik hiss edib, vaxtında işə gəlir, vaxtında qidalanır və evdən çıxadan fikirləşir ki, mən müştərilərlə ünsiyyətdə olacam, ona görə də geyimimə, özümün baxımlı olmağıma, alıcılarla danışmığa ciddi fikir verməliyəm. Həm də satdığı mallar haqqında böyük məlumatı olur. Hətta eyni malın birinin niyə ucuz və o birinin niyə baha olduğuna qədər onlara öyrədirəm. Deyirəm ki, su nəqliyyatı ilə gələn mallar ucuz olur, yol nəqliyyatı ilə gələn həmin mallar baha olur. Alıcılara bunu da deyin ki, qoy bilsinlər. Eləcə də Asiya ölkələrində , Çində əl əməyi və xammal ucuz olduğuna görə həmin məhsullar da ucuz olur. Beləliklə, artıq bizdə satıcılar bir psixoloq kimi yetişirlər. Satıcılara həmişə deyirəm ki, satış rinqə bənzəyir. Bilin ki, siz alıcılarla rinqdəsiniz. Ona görə də siz öz sahənizi mükəmməl bilməlisiniz ki, qalib gələsiniz. Və həmin müştərini təkrar müştəriyə çevirməlisiniz ki, bundan sonra o, istədiyi məhsulu ailmaq üçün yalnız bura gəlsin və öz yaxın tanışlarını da bura gətirsin.

**-Bu il ölkə başçımız tərəfindən Azərbaycanda "Şuşa ili" elan olunub. Sizin 44 günlük Vətən müharibəsinə və "Şuşa ili" elan olunmasına ziyalı kimi münasibətiniz necədir?**

-44 günlük Vətən müharibəsi, 300 ildən sonra Azərbaycan xalqının ən böyük qələbəsidir. Burada Ali Baş Komandanımız Cənab İlham Əliyevin və qüdrətli ordumuzun əməyi, igidliyi danılmazdır. Əlbəttə, bu müharibədə biz itgilər də verdik. Allah şəhidlərimizə rəhmət eləsin və qazilərimizin canını sağlam eləsin. Məhz onların sayəsində biz qalib gəldik. Biz iş adamı olaraq, tez-tez xarici ölkələrdə bizneslə bağlı səfərlərdə oluruq. Orada ermənilər də olurdu. Əvvəllər biz, birinci Qarabağ savaşında məğlub olduğumuza görə utanırdıq. Allah Prezidentimizin canını sağ eləsin ki, indi başımızı dik tuturuq. İndi ermənilər utandığından başlarını aşağı dikirlər. Bizim üçün bundan böyük fəxarət ola bilərmi? Əlbəttə, yox. Prezidentimiz və rəşadətli ordumuz, igidlərimiz artıq namusumuzu, qeyrətimizi, mənliyimizi, kimliyimizi özümüzə qaytardı. Bax, indi xarici ölkələrdə başı dik gəzib, ermənilərin yanında da şəstlə dayanıram və onların səhvlərini də üzlərinə deyirəm. Onlar da mənimlə razılaşırlar. Çünki qalibi müzakirə etmirlər. Qalib, öz sözünü demiş fatehdir.

Qaldı bu ilin "Şuşa ili" elan olunmasına çox yüksək baxıram. Çünki Şaşa bütün azərbaycanlılar üçün ən müqəddəs bir yerdir. Axı bütövlükdə Qarabağ və əsasən də Şuşa artıq xalqımızın müqəddəs Məkkəsi, Mədinəsi, Kərbəlasıdır. Ora uzun illər bizim mədəniyyət mərkəzimiz olub. Şuşadan çox böyük dahilərimiz çıxıb. Hətta Şuşanın müsəlman ölkələrinin mədəniyyət mərkəzi olunmasına da çox sevinirəm. Bu da təqdirəlayiqdir. Şuşa ili isə "Qarabağ Azərbaycandır!" deyiminin möhürüdür. Mədəniyyət deyəndə ilk öncə Şuşa yada düşür. Şuşa millətimizin tacıdır. Cənab Prezidentimiz İlham Əliyevin apardığı siyasəti də xalqımız həmişə dəstəkləyir. Bilirsiniz ki, ermənilər tarixən oğru olan bir toplumdurlar. Onlar bizim mədəniyyətimizi, ədəbiyyatımızı, musiqimizi, rəqslərimizi ( yallılarımızı), tarixi abidələrimizi, kilsələrimizi, musiq alətlərimizi, mətbəximizi oğurlayıblar. Bu ilin "Şuşa ili" elan olunması ilə bir daha tarixə möhür vurulur ki, Şuşa tarixən bizim olub və həmişə də bizim olacaq. Eləcə də sevimli Prezidentimizin bu sərəncamı ilə həmin oğru, yalançı toplum olan ermənilərin belini sındırırıq. Bununla onları dünya millətlərinin yanında da xar, biabır eləyəcək. Bax, bu ən böyük informasiya qələbəsidir. İnanmıram ki, bundan sonra ermənilər Şuşanın adını dillərinə bir daha gətirməyəcəklər.

***Ağalar İDRİSOĞLU,***
***Əməkdar incəsənət xadimi***

## "Cinayətin günahkarları gec-tez haqq etdikləri cəzanı alacaqlar"




"Xocalı soyqırımı 20-ci əsrin ən böyük faciələrindən biridir. BMT yaradılandan, həmçinin dünyada hüquq və azadlıqlarla, o cümlədən insanlıq əleyhinə cinayətlərlə bağlı konvensiyaların qəbulundan sonra bu cür hadisələrin törədilməsi iki məqama işarə edir". Bunu SİA-ya açıqlamasında "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli deyib. Onun sözlərinə görə, birinci budur ki, dünyada hələ də insanlara, bəşəriyyətə qənim kəsilən toplumlar, siyasətçilər, hərbçilər var: "Görünür ki, bəzən belələrinin vaxtında cəzalandırılmaması digərlərini də bu cür cinayətlərə sövq edir. İkincisi isə Qərbin bu cür hadisələrə ikili standarlardan yanaşmasını qeyd edə bilərəm. Kimsəyə sirr deyil ki, özlərini demokratiya carçıları, insan hüquqlarının müdafiəçiləri kimi təqdim edən bəzi Qərb dövlətləri eyni məsələlərə fərqli prizmalardan yanaşırlar. Bunun da kökündə onların maraqları dayanır. Yəni məhz dövlətlərin davranışının nəticəsində də həm bu cür bəşəriyyət əleyhinə cinayətlər törədilir, həm də bu cinayətləri törədənlər cəzasız qalır".

Müsahibimiz deyib ki, həmin dövlətlərin ikili standartı bəzən bütün hədləri aşır: "Təsəvvür edirsiniz ki, yüz il bundan öncə olmayan bir məsələni "soyqırımı" kimi tanıyaraq Türkiyəyə təzyiq edən həmin Qərb dövlətləri cəmi 30 il əvvəl dünyanın gözü qarşıısnda baş verən Xocalı soyqırmına laqeyd yanaşırlar. Çünki dediyim kimi, onlar bütün məsələlərə öz maraq prizmaları çərçivəsindən yanaşırlar. Nəticədə də bu cür faciələr təkrarlanır".

Qeyd olunub ki, Xocalı soyqırımının günahkarları Robert Köçəryan və Serj Sarqsyan Ermənistanın prezidenti kimi uzun illər Qərbdə qəbul edildi, tədbirlərdə başda oturduldu: "Heç bir Qərb ölkəsi, yaxud da bu gün müstəqil siyasət yürüdən dövlətlərə qarşı demokratiyanı, insan hüquqlarını əllərində bayraq edərək təzyiq mexanizmi rolunu oynayan bəzi təşkilatlar bu canilərə Xocalı ilə bağlı bircə sual belə vermədilər. Bax, budur Qərbin ikili standartları, bax, budur bəzi Qərb qurumlarının ikiüzlü siyasəti".

E.Həsənli bildirib ki, Xocalı soyqırımı başqa bir məqamına görə də dünyanın diqqətində olmalıdır: "Söhbət bir xalq olaraq ermənilərin insanlığıa qarşı cinayətlər törətməsindən gedir. Bəli mən çəkinmədən "bir xalq olaraq" deyirəm. Çünki adətən hər hansı bir ölkədə bu cür qanlı cinayəti törətməyə hərbçilər, siyasətçilər meyilli olurlar. Şairlər, yazıçılar, bir sözlə ziyalılar isə sülh tərəfdarı olur, münaqişələrin yatırılmasında öndə gedirlər. Amma Xocalı soyqırımı göstərdi ki, ermənilərin ziyalıları da qaniçən - insanlığa qənim kəsilənlərdir. Hər halda Zori Balayanın timsalında bu dediklərimiz özünü tam təsdiq edir".




***Siyasi şərhçi Sergey Strokan Ukrayna böhranının kəskinləşməsi fonunda Rusiya və Azərbaycan arasında yeni strateji müttəfiqlik haqqında fikirlərini "Moskva-Baku" portalına bildirib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Sergey Strokan: İlham Əliyev dünyaya göstərdi ki, ölkələrin qarşıdurmasına alternativ yollar da var

Əsas nəticəsi iki ölkə arasında Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamənin imzalanması olan Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya səfəri bir gün əvvəl baş verən Donbass respublikalarının 8 illik dramının dramatik şəkildə tanınması ilə əlaqədar əlavə məna kəsb etdi.

İlham Əliyevin Kremldə danışıqlara yenicə hazırlaşdığı bir vaxtda Vladimir Putinin səsləndirdiyi müraciət dünyada partlayan bomba effekti yaradıb. Siyasətçiləri, diplomatları və ekspertləri baş verənlərə münasibətini inkişaf etdirərək, fövqəladə rejimdə yuxusuz gecə keçirməyə məcbur etdi. Bütün dünyanın gözü Vladimir Putinə çevrildi, hamı başa düşdü ki, indi yeni tarix yaradılır, yalnız bunun müsbət və ya mənfi işarəli tarix olması barədə mübahisələr var.

Beləliklə, unikal bir vəziyyət yarandı. Bir tarixi hadisə- DXR və LXR-in Moskva tərəfindən tanınması, beynəlxalq rezonans doğurmasa da, sanki başqa bir tarixi hadisənin üzərinə qoyulmuşdu, lakin Moskva və Bakı üçün başqa bir əlamətdar hadisə baş verdi. Fevralın 22-dən bu ölkələrin münasibətləri keyfiyyətcə yeni səviyyəyə yüksəlib, onlar müttəfiqə çevrilib və məhz İlham Əliyev Donbass respublikalarının tanınması ilə bağlı bəyanatından dərhal sonra Rusiya prezidenti ilə şəxsən əlaqə saxlayan ilk xarici lider olub.

Həm hazırkı formada Ukrayna dövlətinə, həm Kiyevin Qərb müttəfiqlərinə, həm də bütün postsovet məkanında Sovet İttifaqı dövründə ölkəni məhv edən millətçi qüvvələrə məyusedici diaqnoz qoyan Vladimir Putinin müraciətindən bir gün keçməmiş, Prezident Əliyevlə görüşdə biz tamamilə fərqli bir Rusiya lideri gördük. Vladimir Putin gülümsədi, zarafat etdi və şikayət etdi ki, koronavirus pandemiyası İlham Əliyevlə yaxın şəxsi əlaqəyə mane olur, bu, onun prezident seçildikdən sonra artıq onun Rusiyaya 50-ci səfəri idi.

Bundan başqa, səfər Rusiya-Azərbaycan diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümünə təsadüf edir.

Ümumiyyətlə, bu gün postsovet məkanında Moskva ilə, müxtəlif platformalarda və müxtəlif formatlarda qarşılıqlı əlaqədə belə bir təcrübəyə malik olan ikinci bir lider yoxdur.

Lakin məsələ təkcə koronavirus pandemiyasının kəsə bilmədiyi təmasların sayında deyil, onların keyfiyyətində və məzmunundadır. Üstəlik, söhbət yarandıqlarından 30 il sonra müttəfiqlər səviyyəsinə yüksəldilmiş Moskva ilə Bakının ikitərəfli münasibətləri modelindədir.

Əslində, İlham Əliyevin Moskvaya səfəri hər kəsin Ukraynadakı qarşıdurmanın indi hara qədər gedəcəyi, müharibənin olub-olmayacağı, ölkədə böhranın nə dərəcədə dərin olduğu suallarını müzakirə etdiyi həlledici məqamda baş verib. Rusiyanın Qərblə münasibətləri bizi çox şeylər üzərində düşünməyə vadar etmişdi. Hər şey nisbidir. Əslində, Rusiyanın Ukrayna və Azərbaycanla münasibətləri bu gün iki əks modeli təmsil edir. Bir model, Ukrayna modeli, açıq şəkildə ziddiyyətlidir, Moskva ilə qarşıdurmada özünə yeni imkanlar tapmağa yönəlib. İkinci model Azərbaycan modeli rədd və ya qırılma nöqtələri deyil, həmişə yeni təmas nöqtələrinin axtarışı üzərində qurulub.

Təsadüfi deyil ki, Kremldə imzalanmış Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamədə 40-dan çox bənd var və bu, qarşılıqlı fəaliyyət üçün böyük meydan açır.

Qeyd etmək lazımdır ki, Rusiyanın həm postsovet məkanında, həm də onun hüdudlarından kənarda bir çox əleyhdarları Vladimir Putinin müraciətini Rusiya ilə indi ümumiyyətlə heç bir iş aparmağın qeyri-mümkün olduğunun, onun düzəlməz təhlükəli yırtıcı olduğunun təsdiqi kimi qiymətləndiriblər. İddia edirlər ki, o, başqalarını öz iradəsinə tabe edir və imperiyanı bərpa etməyə çalışır, ona görə də keçmiş Sovet respublikaları bütün gücləri ilə Rusiyanı cilovlamalıdırlar. SSRİ-nin dağılmasından sonra əldə etdikləri və yeni müstəqil dövlətlərin əsas sərvəti olaraq qalan öz suverenliklərini, dövlətçiliklərini itirməmək üçün təmkinli olmaları lazımdır.

Lakin Moskva ilə müttəfiqlik bəyannaməsini imzalayan İlham Əliyev əslində, Rusiyanın qonşularına və bütün dünyaya sanksiya, bloklama, təzyiq və təhdid siyasətinə ağlabatan alternativin olduğunu nümayiş etdirən birinci lider oldu. Məhz, tərəfdaşlıqdan müttəfiqlərə çevrilə bilən və hər iki tərəfə böyük dividendlər gətirə biləcək münasibətlər qurmaq. "Düşünürəm ki, bu sənəd mütləq ölkələrimiz, qarşılıqlı fəaliyyətimiz, eləcə də regional təhlükəsizlik üçün çox müsbət məna kəsb edəcəkdir. Biz ölkələr arasında yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini həqiqətən yüksək qiymətləndiririk, onları möhkəmləndiririk",- deyə İlham Əliyev bildirib. O, Müttəfiqlərin Əməkdaşlığı haqqında Bəyannamənin imzalanmasını Moskva və Bakının son illərdə necə fəal işlədiyinin, qarşılıqlı əməkdaşlıq potensialının yaradılmasının çox gözəl nümunəsi adlandırıb.

Rusiyanın Avropada müharibənin qızışdırıcısı kimi təqdim edildiyi bir şəraitdə, onun Ukrayna münaqişəsinə münasibətinə toxunan Azərbaycan Prezidentinin Moskvada verdiyi bəyanatda məhz bu məqama toxunub və qeyd edib ki, Rusiya Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün imkanların yaradılmasında aparıcı rol oynayıb.

Beləliklə, bu illüstrativ nümunədə Ukraynada və Qərbdə anlamaqdan imtina etdikləri sadə bir şeyi görmək və başa düşmək olardı: Rusiya müharibələri alovlandırmır, əksinə söndürür. Qarabağda Rusiyanın roluna baxın görəcəksiniz ki, müharibəyə yox sülhə çalışır.

Və nəhayət, Moskvada imzalanmış Bakı ilə müttəfiqlik münasibətləri haqqında bəyannamə Moskvanın Bakı ilə hörmətli məsafə saxlamasının daha yaxşı olduğunu bu qədər uzun və məqsədyönlü şəkildə təkid edənləri nəhayət susdurmalıdır. Çünki bəziləri qeyd edirdi ki, Bakı hələ də öz oyununu oynayır, hələ də yeni Osmanlı imperiyası quran Türkiyəyə baxır və ona görə də heç vaxt Rusiyanın Ermənistan qədər etibarlı müttəfiqi ola bilməyəcək. Və Azərbaycanı çirkli yola salmağa çalışanların və onunla münasibətlərin istər-istəməz çoxlu yan təsirlərə malik olacağına inananların hamısı trenddən çıxdı. Dəyişən reallıqlar bu iddiaları kənara atdı.

***Tərcümə - Elçin Bayramlı***

## Armen Gevorqyan: "Ermənistan üç bəyanat arasındadır"

"Sözügedən Bəyannamələrdə Rusiya və Türkiyənin regionda əsas müşahidəçi rolu uğrunda girdikləri rəqabətli mübarizə kəskin şəkildə hiss olunur". Bunu "Ermənistan" fraksiyasından olan deputat, Ermənistan baş nazirinin keçmiş müavini Armen Gevorqyan öz Teleqram kanalında yazıb.

"Ermənistan üç bəyannamə arasındadır. 44 günlük müharibədən sonra təkcə üçtərəfli bəyanatlar deyil, həm də müxtəlif beynəlxalq formatlarda qəbul edilən Bəyannamələr ənənəvi hal alıb. Onların arasında mühüm üç Bəyannamə - Türkiyə ilə Azərbaycan arasında iyunda imzalanmış Şuşa, 2021-ci ilin noyabrında türk dövlətlərinin Zirvə toplantısında qəbul edilmiş İstanbul və 2022-ci ilin fevralında Rusiya ilə Azərbaycan arasında imzalanmış Moskva Bəyannamələri var. Gördüyünüz kimi, onların arasında Ermənistanın birbaşa iştirakçısı olduğu heç bir bəyannamə yoxdur, amma hamısı müəyyən dərəcədə bizə aiddir. Ola bilsin ki, tezliklə bu silsilədə Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına dair Bəyannamə də yer alsın. Yuxarıda qeyd olunan Bəyannamələrdə regionda əsas müşahidəçi rolu uğrunda Rusiya və Türkiyənin girdiyi rəqabətli mübarizə kəskin şəkildə hiss olunur. Aydındır ki, bu mübarizədə həlledici amil Azərbaycana maksimum təsir göstərməkdir. Bu təsir üçün Rusiya regionda əsas müttəfiqi - Ermənistan hesabına kompromislərə getməyə, Türkiyə isə yenə Ermənistan hesabına Azərbaycanın regionda yeni üstünlüklər qazanmasına kömək etməyə hazırdır. Eyni zamanda, sual açıq qalır, Ermənistan bütün bunlardan nə əldə edəcək, daha doğrusu, Ermənistan daha nə itirə bilər?".



SƏS
24 fevral
2022-ci il

# "Barselona"ya qayıtmaq üçün hər şey etdim"



*PSJ-nin hücumçusu Neymar 2019-cu ildə "Barselona"ya qayıtmaq istədiyini etiraf edib. Belə ki, 30 yaşlı futbolçu "Mundo Deportivo"ya açıqlamasında Kataloniya təmsilçisinə geri dönmək üçün hər şey etdiyini, lakin alınmadığını bildirib:*

"Barselona"ya qayıtmaq istəyirdim. Bunun üçün hər şey etdim, amma bacarmadım. Nəhayət Lionel Messinin PSJ-yə gəlmə şansı yarandı. Onun burada olmağına görə çox xoşbəxtəm".

Qeyd edək ki, braziliyalı oyunçu 2013-2017-ci illərdə "Barselona"da çıxış edib.

# Maskalara nə vaxt əlvida deyəcəyik?

*Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov hazırda Azərbaycanda epidemioloji vəziyyətin qənaətbəxş olduğunu deyib. Baş infeksionistin sözlərinə görə, ölkədə "omikron" ştammına qarşı kütləvi immunitet hələ yaranmayıb.*



***- Doktor, hazırda epidemioloji vəziyyəti necə qiymətləndirirsiniz? Ümumiyyətlə, Azərbaycan səhiyyəsi "omikron" ştamminın öhdəsindən necə gəldi və ya gəlir?***

- Hazırda epidemioloji durum qənaətbəxşdir, son günlər pozitiv dinamika izlənilir. Yəni, yoluxma hallarının sayında, əhalinin test olunmaq üçün müraciətlərində azalma qeyd olunur, sağalan xəstələrin sayı yeni yoluxanları üstələyir, yəni biz hazırda dalğanın enişindəyik. Görülmüş kompleks tədbirlər nəticəsində "omikron" ştammının yayılma sürəti səngiyib, ambulator müəssisələrin iş yükü artsa da, stasionarların izafi yüklənməsi baş verməyib. Kritik xəstələrin sayı və ölüm göstəricisi əvvəlki dalğalarla müqayisədə aşağıdır.

***- Bir çox mütəxəssis ölkədə artıq kütləvi immunitetin formalaşdığını qeyd edir. Bu halda maska qadağasının aradan qaldırılması mümkündürmü?***

- Mütəxəssislər hesab edirlər ki, "omikron" ştamının hegemonluğu dövründə populyasion immunitetin əldə olunması üçün əhalinin 80 faizdən çox hissəsində peyvənd və ya təbii yolla qoruyuculuğun formalaşması tələb olunur. Ölkəmizdə hələ ki, bu hədəflərə çatmamışıq. Ona görə də maska qadağasının qapalı məkanlarda aradan qaldırılması qərarının zamana ehtiyacı var.

- Vaksinasiya prosesinin nə zamana qədər davam etdiriləcəyi gözlənilir?

- Çox güman ki, pandemiya davam etdikcə vaksinasiya aktual olaraq qalacaq. Pandemiya bitdikdən sonra isə mövsümlə əlaqədar peyvəndləmənin tövsiyə olunması düşünülür./Publika.az

# Keçmiş məhkumdan heroin götürülüb

*Ağsu Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan SİA-ya verilən məlumata görə, daxil olmuş məlumat əsasında keçirilən tədbir zamanı əvvəllər məhkum olunmuş şəhər sakini Amid Muradov şübhəli şəxs qismində saxlanılıb.*



Üzərinə keçirilən baxış zamanı ondan külli miqdarda narkotik vasitə olan heroin və metamfetamin qalıqları olan şüşə qab aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı cinayət işi başlanıb, məhkəmənin də qərarı ilə Amid Muradov barəsində həbs qətimkan tədbiri seçilib.

# Stress zamanı nə etmək lazımdır?

***Qorxu, qəzəb, vicdan əzabı. Bu hissləri hamımız keçirmişik. Psixoloqlar belə anlarda insanın sinir sisteminin gərginləşdiyini qeyd edirlər. Bu zaman isə insanlarda ürəkdöyünmə, istilikbasma, titrətmə, qıcıqlanma hissi olur. Bəs bu zaman nə etmək lazımdır? Nə etmək lazımdır ki, belə vəziyyətdə ağıla sahib olmaq mümkün olsun.***

Psixoloqlar bu zaman 2 variantın olduğunu qeyd edirlər. Stress yaradan sahədən uzaqlaşmaq və ya fikrində məğlub olmaq. Bu bir addım geri çəkilmək kimi də qiymətləndirilə bilər. Vəziyyətin uzanıb daha da irəli getməməsi üçün bu variantların hər ikisi vacib sayılır.



Əgər stress baş verən məkandan uzaqlaşmaq mümkün deyilsə, o zaman dərindən nəfəs almaq və diqqətini başqa yönə yönləndirmək lazımdır. Özünüzə gəlmək üçün siz buraya niyə gəlmənizi, harada yaşamanızı, hansı səsləri eşitdiyinizi fikirləşə bilərsiniz.

Stressi aradan qaldırmaq üçün mütəxəssislər piyada gəzinti, qaçaraq tullanmaq, mənfi enerjini müxtəlif idman hərəkətləri ilə bədəndən çıxarmaq lazımdır.

İkinci variant stresdən uzaq olmaq üçün işlə məşğul olmaqdır. Bu məşğuliyyət riyaziyyat məsələləri həll etməkdən, şeir oxuyub əzbərləməkdən ibarət ola bilər. Bu üsul stress atmaq üçün ən yaxşı vasitədir.

Bu zaman siz öz-özünüzə bəzi suallar verə bilərsiniz. Mən bu absurd vəziyyətdən çıxmaq üçün nə edə bilərəm? Mənim hansı məlumatlardan xəbərim var? Bu məsələdə mən hansı qərara gəldim?

Stress zamanlarında öz qəzəbinizi boğmağa çalışın. Bu zaman çalışın əsəblərinizə hakim olun. Əgər mübahisə telefonda baş veribsə, o zaman ayaq üstündə durmağa çalışın. Əgər oturaraq danışmaq məcburiyyətindəsinizsə o zaman çalışın stolda rahat oturun.

Qarşınızdakı adama qarşı qəzəb hissi duysanız da gülümsəməyə çalışın. Gülümsəyərək qarşındakı adam ilə söhbət eləmək ortalıqda gərginliyin olmamasına səbəb olur. Gülümsəmək neqativ enerjinin aradan qalxmasına səbəb olur. Əgər qarşınızdakı adam sizin gülümsəmənizə layiq deyilsə, o zaman gülümsəyərkən gözlərinizi yumun.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**